# Aİ BİZNES MÜHİTİ HESABATI

## AZƏRBAYCAN 2019



Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin fikirləri

AHK
Deutsch-Aserbaidschanische Auslandshandelskammer
Alman-Azərbaycan Xarici Ticarət Palatası

Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir
EU4Business

# Aİ BİZNES MÜHİTİ HESABATI

## AZƏRBAYCAN 2019

**Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin fikirləri**



# MÜNDƏRİCAT


02 | ÖN SÖZ

Kestutis Jankauskas,
Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin rəhbəri

Tobias Baumann,
AHK Azərbaycanın İcraçı Direktoru

04 | GİRİŞ

Aİ Biznes Mühiti Sorğusu və Hesabatı

05 | QISA İCMAL

Sorğunun əsas nəticələri

06 | FƏSİL 1

Aİ şirkətlərinin iqtisadi islahatlara dair fikirləri

14 | FƏSİL 2

Makroiqtisadi və sektordakı vəziyyət: Aİ biznes perspektivləri

19 | FƏSİL 3

Yerli biznes mühitinin əsas göstəriciləri: Fəaliyyət və çətinliklər

29 | FƏSİL 4

Azərbaycan investisiya məkanı kimi

32 | NƏTİCƏ

Gələcəyə baxış və təkliflər

33 | ƏLAVƏ

Metodologiya və Sorğunun təfərrüatlı nəticələri

# ÖN SÖZ

**KESTUTIS JANKAUSKAS**
Səfir - Nümayəndəliyin rəhbəri
Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi



## *Dövlət-özəl sektor arasında dialoqun inkişaf etdirilməsi*

Avropa İttifaqı (Aİ) Azərbaycan və Aİ arasında əmək-daşlığın inkişafı üçün mümkün olan ən yaxşı biznes mühiti-nin yaradılmasına yardım edir. Ötən nəşrlərdə olduğu kimi, Azərbaycanın dördüncü Aİ Biznes Mühiti Hesabatı da Azərbaycandakı cari biznes mühitini tədqiq edir və Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan çoxlu sayda şirkətin fikirlərini təqdim edir. Hesabatın nəticələri hal-hazırda Azərbaycanda fəaliyyət göstərən təxminən 400 Aİ şirkətindən 130-nun fikirlərinə əsaslanır. Onlar kiçik və orta müəssisələrdən (KOM-lar) tutmuş iri şirkətlərə kimi müxtəlif sənaye sahələrində fəaliyyət göstərirlər.

Biznes mühitinin inkişaf etdirilməsi ilə bağlı tədbirlər Azərbaycanla əməkdaşlığımızın əsasını təşkil edir. Biz geniş spektrli texniki yardım, tvinninq layihələri və qrantlar vasitəsilə Azərbaycanın iqtisadiyyatın şaxələndirilməsi istiqamətində səylərini fəal şəkildə dəstəkləyirik. Hal-hazır-da ölkə vətəndaşlarına birbaşa fayda təmin edəcək ticarət, əlaqəlilik və islahatlar üzrə əməkdaşlığımızı daha da dərinləşdirmək məqsədilə yeni çərçivə müqaviləsini yekunlaşdırmaq üzrəyik. Bu, tərəfdaşlığımızı, xüsusilə iqti-sadi əməkdaşlığımızı keyfiyyət baxımından yeni mərhələyə daşıyacaq təkanverici qüvvə olacaq.

Bu il biz həmçinin Şərq Tərəfdaşlığının 10 illiyini qeyd edirik. Bu, nailiyyətlərimizi dəyərləndirmək və gələcək tədbirlər barədə düşünmək üçün yaxşı imkandır. Bu ba-xımdan, Aİ Biznes Mühiti Hesabatı irəliləyişlər və çətin-liklərə dair qısa icmal təmin edən konstruktiv vasitədir. Bu məlumatlar Aİ-Azərbaycan arasında ticarətin və investisi-yaların daha da artırılması üçün ilkin şərtdir. Aİ şirkətləri-nin ümumi fikirləri müsbət olsa da, hesabat həmçinin Aİ sahibkarlarının hələ də qarşılaşdıqları müəyyən əngəlləri işıqlandırır.

Bu mühüm hesabatın ərsəyə gəlməsində AHK Azərbay-canla birgə əməkdaşlığımızdan məmnunluq duyuruq. Sorğu, müsahibələr və bağlı qrup müzakirələri vasitəsilə toplanılan məlumatlar Aİ və onun üzv dövlətlərinin davamlı fəaliyyətini dəstəkləmək baxımından olduqca dəyərlidir. Şübhəsiz ki, Azərbaycandakı cari iqtisadi, biznes və tənzimləyici mühitin ümumi qiymətləndirilməsinə dair bu hesabat və Aİ-Azərbaycan Biznes Forumu konstruktiv dövlət-özəl sektor dialoqunun təşviqinə və irəliyə doğru ən yaxşı yolun müəyyən edilməsinə yardım edəcək.

Aİ və Azərbaycan vətəndaşlarının, şirkətlərinin və iqtisa-diyyatlarının qarşılıqlı fayda əldə etməsini təmin etmək məqsədilə Aİ islahatların həyata keçirilməsini dəstək-ləməyə davam edəcək.






**TOBIAS BAUMANN**
İcraçı Direktor
Alman-Azərbaycan Xarici Ticarət Palatası


## *Aİ şirkətləri yaxın gələcəkdə iqtisadi sabitlik gözləyirlər*

Dinamik və daim dəyişən dünyada biznes icmasının, investorların və hökumət qurumlarının biznes mühitinə və onun aparıcı qüvvələrinə dair ən yeni məlumata çıxışının olması önəmlidir. Bu səbəbdən, biz Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyi ilə sıx və uğurlu əməkdaşlıq çərçivəsində hər il Azərbaycanın Aİ Biznes Mühiti Sorğusunu keçiririk. Azərbaycanın Aİ Biznes Mühiti Hesabatının 2019-cu il üzrə nəşrini təqdim etməkdən məmnunluq duyuruq. 2016-ci ildəki ilk nəşrindən etibarən, hesabat Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmaq və ölkəyə sərmayə qoymaq üzrə mövcud şərtlər haqqında daha çox məlumat əldə etmək istəyənlər üçün qiymətli vasitəyə çevrilmişdir. Hökumət və biznes nümayəndələrinin nəşrə göstərdikləri marağın artması bizi daha da ruhlandırır.

İqtisadi dayanıqlılıq fonunda Aİ şirkətləri ölkədəki cari iqtisadi şəraiti qənaətbəxş olaraq qiymətləndirir və iqtisadi vəziyyətin sabit olacağını gözləyirlər. Həmçinin qeyd etmək lazımdır ki, hökumətin son üç ildə, xüsusilə vergi və gömrük sahəsində həyata keçirdiyi islahatlar öz nəticəsini verməyə başlayır. Bu, bu il investorların etimadının artmasında özünü büruzə verir. Bununla belə, hesabatın nəticələri göstərir ki, ölkənin biznes və investisiya mühitinin yaxşılaşdırılması üçün hələ çox iş görülməlidir. Beləliklə, hökumətin əldə etdiyi nailiyyətlərlə kifayətlənməməsi və hələ də mövcud olan iqtisadi və struktur çətinliklərinin aradan qaldırılmasını təmin etmək məqsədilə əlavə islahatlara davam etməsi mühüm əhəmiyyət kəsb edir.

Ümid edirik ki, bu hesabat dövlət qurumlarına və iqtisadi siyasəti formalaşdıran şəxslərə ölkənin biznes mühiti və şirkətlərin ehtiyacları barədə ətraflı məlumat təmin edən faydalı bir vasitə olacaq. Beləliklə, bu hesabat hökumətin islahat yönümlü gündəliyinə töhfə verəcək. Bu nəşrin digər məqsədi Aİ və Azərbaycan arasında müsbət biznes əlaqələrinin inkişafını dəstəkləməkdir. Bu məqsədlə, biz müvafiq və vaxtlı-vaxtında məlumat təmin edən bu hesabatın hər il ərsəyə gəlməsi üçün səy göstərməyə davam edəcəyik.

AHK Azərbaycan adından, bu layihəyə göstərdiyi maliyyə dəstəyinə və uzunmüddətli əməkdaşlığımıza görə Aİ-nin Azərbaycandakı Nümayəndəliyinə təşəkkür edirəm. Həmçinin, sorğumuzda iştirak etdiklərinə görə, eləcə də müsahibələrdə və bağlı qrup müzakirələrində öz dəyərli fikirlərini bizimlə bölüşdüklərinə görə Aİ şirkətlərinə minnətdarlığımı bildirirəm. Sizin töhfənizi yüksək qiymətləndirir və əməkdaşlığımızı daha da gücləndirməyi hədəfləyirik!



# GİRİŞ

Aİ Biznes Mühiti Hesabatı Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin ölkədəki hazırkı iqtisadi vəziyyətə, biznes və investisiya mühitinə dair fikirlərini əks etdirən illik bisnes mühiti sorğusunun nəticələri əsasında hazırlanır. Azərbaycanda fəaliyyət göstərən və ölkə ilə əməkdaşlıq edən Aİ şirkətlərinin sayı 400-dən artıqdır. Ölkəyə cəlb edilən birbaşa xarici investisiyaların və Azərbaycanın ticarətinin böyük bir hissəsi bu şirkətlərin payına düşür. Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin maliyyə və texniki dəstəyi ilə Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən (2019-cu ilin yanvar-fevral ayları ərzində) aparılan bu ilki sorğu ardıcıl olaraq həyata keçirilən sayca dördüncü sorğudur.

Sorğunun başlıca məqsədi Aİ şirkətlərinin fikirlərinə əsaslanaraq Azərbaycandakı cari makroiqtisadi vəziyyət, eləcə də biznes və investisiya mühiti haqqında məlumat verməkdir. Bundan əlavə, sorğu Aİ şirkətlərinin qısamüddətli inkişaf gözləntilərini, qarşılaşdıqları çətinlikləri və həll olunmalı problemləri işıqlandırır. Hər il aparılan bu tədqiqat əsas biznes göstəricilərində və investisiya faktorlarında ilbəil baş verən dəyişiklikləri göstərməklə ölkədəki iqtisadi tendensiyaları işıqlandırır. Əldə olunan məlumatlar biznes fəaliyyətinə və ya biznesin inkişafına əngəl törədən əsas amilləri müəyyənləşdirməklə və onların mənfi təsirinin azaldılması, yaxud səmərəli həll yollarını təklif etməklə ölkədəki cari vəziyyətin qiymətləndirilməsinə böyük töhfə verir.

## 130 onlayn cavab

Ötən illərdə olduğu kimi, sorğu Azərbaycandakı hazırkı iqtisadi vəziyyətin, Azərbaycanın biznes mühitinin fərdi şirkətlərə təsirinin qiymətləndirilməsi və şirkətlərin demoqrafik göstəricilərinə dair 20 sualdan ibarətdir. Müvafiq zaman ərzində müqayisə ediləbiləcək məlumat toplusunun əldə edilməsi məqsədilə əsas sualların əksəriyyəti dəyişdirilməmişdir. 2018-ci il ərzində hökumətin islahatlar gündəliyində baş verən önəmli yenilikləri, eləcə də ötən il Aİ şirkətlərindən əldə edilən rəyləri nəzərə alaraq, bu il suallara bəzi əlavələr olunmuşdur. Misal olaraq, islahatların səmərəliliyinin qiymətləndirilməsinə dair suala əmək bazarı və sosial müdafiə sahəsində aparılan islahatlar daxil edilmişdir.

Bundan əlavə, seçilmiş Aİ şirkətləri ilə ötən il keçirilmiş müsahibələr əsasında məlum oldu ki, şirkətlərin əksəriyyəti aparılan islahatların səmərəliliyi haqqında kifayət qədər məlumatlı deyil. Bu səbəbdən, əldə olunan məlumatlardan daha dəqiq nəticənin çıxarılması məqsədilə bu ilki sorğuya islahatların səmərəliliyinin qiymətləndirilməsi üzrə yeni seçim ( “yaxşı məlumatlı deyiləm” cavab variantı) əlavə edilmişdir. Məlumatlar arasında mümkün əlaqələrin araşdırılması məqsədilə sorğunun nəticələri ötən illərlə müqayisə edilmiş və çarpaz təhlillər aparılmışdır.

Məlumatların keyfiyyət təminatından sonra Azərbaycanda fəaliyyət göstərən və Azərbaycanla əməkdaşlıq edən Aİ şirkətlərinin ölkədəki biznes etimadının qiymətləndirilməsi üçün etibarlı və statistik baxımdan əhəmiyyətli nümunənin əldə edilməsi məqsədilə 130 tam cavab nəzərə alınmışdır. Qeyd edilməlidir ki, cavabların sayı ötən ilki sorğu ilə demək olar ki, eynidir.

## 20 üzbəüz müsahibə

Aİ Biznes Mühiti Hesabatının hazırlanmasında eyni metodologiyadan istifadə edilməklə, toplanılmış kəmiyyət göstəriciləri bu il də keyfiyyətli tədqiqat məlumatları ilə tamamlanmışdır. Belə ki, onlayn sorğunun nəticələrini təhlil etməklə yanaşı, hesabat Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan Aİ şirkətlərinin baş icraçı direktorları və yüksək vəzifəli nümayəndələri ilə keçirilən üzbəüz müsahibələr və bağlı qrup müzakirələrində səsləndirilən rəylər nəzərə alınaraq hazırlanmışdır. Azərbaycan iqtisadiyyatının 10 önəmli sektorunu təmsil edən 20 Aİ şirkəti ilə üzbəüz müsahibə keçirilmişdir. Xatırladaq ki, 2018-ci ildə keçirilmiş üzbəüz müsahibələrin sayı 17 olmuşdur.

## Təmsil olunan 16 sektor

Sorğuda iştirak edən şirkətlər geniş fəaliyyət sahəsini əhatə edən 16 sektoru təmsil edir və cavabların əksəriyyəti Topdan və Pərakəndə Satış; Dağ-Mədən, Neft və Qaz; Peşəkar, Elmi və Texniki Fəaliyyətlər; Maliyyə və Sığorta Fəaliyyətləri və Nəqliyyat və Anbar təsərrüfatı sahələrindən əldə edilmişdir. Sorğuda iştirak edən şirkətlər 17 ölkəni təmsil edirlər. Onların 28%-i Almaniya şirkətləri, 22%-i Aİ mallarının və xidmətlərinin Azərbaycana idxalı ilə məşğul olan Azərbaycan şirkətləri və 15%-i isə Azərbaycanda fəaliyyət göstərən Birləşmiş Krallıq şirkətləridir.

Sorğuda iştirak edən şirkətlər, eyni zamanda ölçüsünə görə fərqlənir. Belə ki, şirkətlərin 38% və 48%-i müvafiq olaraq (işçi heyəti 9 nəfərədək olan) mikro müəssisələr və (işçi heyəti 250 nəfərdən az olan) kiçik və orta müəssisələr, 14%-i isə (işçi heyəti 250 nəfərdən artıq olan) iri müəssisələrdir. Sorğu iştirakçılarının vəzifələrinə gəldikdə isə onların əksəriyyəti Direktorlar/Baş İcraçı Direktorlar (44%) və Müdirlər (23%) olmuşdur. Əlavədə sorğunun metodologiyası daha təfərrüatlı şəkildə izah edilir və cavablar ilə bağlı ümumiləşdirilmiş məlumat təqdim edilir.

# SORĞUNUN ƏSAS NƏTİCƏLƏRİ

## İQTİSADİ İSLAHATLAR

### Təklif olunan **3 ƏN VACİB** islahat

- VERGİ SİSTEMİ — 17%
- GÖMRÜK SİSTEMİ — 16%
- TƏHSİL SİSTEMİ — 13%
- HÜQUQ SİSTEMİ

**65%**
Aİ ŞİRKƏTİ

**ASAN**-ın tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzinin **effektivliyini** yüksək qiymətləndirir

**25%**
Aİ ŞİRKƏTİ

İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyətini **səmərəsiz** hesab edir

## MAKROİQTİSADİYYAT VƏ ŞİRKƏT

**64%**
Aİ ŞİRKƏTİ

2019-cu ildə iqtisadi perspektivlərin **sabit** olacağını qeyd edir

**75%**
Aİ ŞİRKƏTİ

Azərbaycana yenidən **investisiya** qoya biləcəyini bildirir

**41%**
gəlirlərin artacağını gözləyir

**45%**
investisiya dinamikasının stabil olacağını proqnozlaşdırır

**47%**
işçi sayını sabit saxlamağı planlaşdırır

## BİZNES MÜHİTİ GÖSTƏRİCİLƏRİ

### **5 ƏN YAXŞI** biznes mühiti göstəricisi




### **5 ƏSAS** biznes riski

- Bazarın qeyri-müəyyən istiqamətdə inkişafı — 68%
- Bürokratiya — 61%
- Korrupsiya — 57%
- İxtisaslı kadr çatışmazlığı — 53%
- İnflyasiya — 46%

# FƏSİL 1

## Aİ şirkətlərinin iqtisadi islahatlara dair fikirləri

### İslahatlar biznes mühitinə müsbət təsir göstərməyə başlayır, lakin iqtisadiyyatın inkişaf etdirilməsi üçün tədbirlər daha da genişləndirilməli və dərinləşdirilməlidir

Neft qiymətlərinin artması və dollara bağlı olan məzənnənin davamlı olaraq sabitləşməsi 2018-ci ildə Azərbaycanda baş vermiş cüzi iqtisadi artımın əsasını təşkil etmişdir. Dünyada neft qiymətlərinin kəskin düşməsindən sonra bir neçə il müddətində iqtisadi geriləmə və ya durğunluq müşahidə olunsa da, dövlət investisiyalarının yenidən artırılması və Cənub Qaz Dəhlizinin (qismən) istismarına başlanılması bu il iqtisadi artıma təkan verdi. 2018-ci ildə də inkişaf tempi aşağı (1,4%) oldu, lakin inflyasiyanın ciddi nəzarət altında saxlanıldığı müddətdə inkişaf tempinin 2019-cu ildə 3,4%-ə çatacağı gözlənilir.[1]

Tədricən bərpa olunan iqtisadiyyat fonunda Aİ şirkətlərinin hökumət tərəfindən 2015-ci ildə neft qiymətlərinin kəskin düşməsinə qarşı irəli sürülən və 2016-cı ildə qəbul edilən Strateji Yol Xəritələrində nəzərdə tutulan struktur və institusional islahatların icrasını necə qiymətləndirdiklərini bilmək maraqlıdır. Hökumətin 2018-ci ildəki islahat gündəliyinin əsasında institusional çərçivənin təkmilləşdirilməsi, təhsil sisteminin müasirləşdirilməsi və sosial xidmətlərin gücləndirilməsi ilə yanaşı, vergi və gömrük bazasının daha da yaxşılaşdırılması dururdu.

Beynəlxalq hesabatlarda müxtəlif nəticələr ilə rastlaşırıq. Bir tərəfdən, Dünya Bankının “Doing Business 2019” hesabatında Azərbaycan dünyada islahatlar aparan 10 ən yaxşı ölkədən biri kimi qeyd olunur. Bu islahatlar nəticəsində Azərbaycan 2018-ci ildə tutduğu 57-ci pillədən 25-ci pilləyə yüksəlmişdir. Reytinqdəki bu böyük irəliləyiş Azərbaycana Şərq Tərəfdaşlığı ölkələrinin əksəriyyətini (6-cı yerdə olan Gürcüstan istisna olmaqla) və Aİ-yə üzv olan bir neçə ölkəni qabaqlamağa imkan vermişdir. Ölkə Kiçik investorların hüquqlarının qorunması (2-ci yer), Biznesə başlama (9-cu yer), Əmlakın qeydiyyata alınması (17-ci yer) və Kreditin əldə edilməsi (22-ci yer) göstəriciləri üzrə nəzərəçarpacaq irəliləyiş əldə etmişdir. Eləcə də Tikintiyə icazələrin verilməsi (61-ci yer) və Elektrik enerjisinin əldə edilməsi (74-cü yer) göstəriciləri üzrə müəyyən irəliləyiş müşahidə olunmuşdur.

Digər tərəfdən isə Azərbaycan Dünya İqtisadi Forumunun hazırladığı “2018-ci il üzrə Qlobal Rəqabətlilik Hesabatı”nda kəskin şəkildə geriləyərək 69-cu yerdə (2017-ci ildə 35-ci yer) qərarlaşıb. Bu reytinqdə Azərbaycanın mövqeyinin zəifləməsi əsasən makroiqtisadi mühitin (2017-ci illə müqayisədə 61 pillə geriləyərək 126-cı yerdə qərarlaşıb) və maliyyə sisteminin bütün göstəriciləri üzrə (2017-ci illə müqayisədə 17 pillə geriləyərək 96-cı yerdə qərarlaşıb) geriləmə ilə bağlıdır. Bu qeyri-bərabər nəticələr nəzərə alındıqda, Aİ şirkətlərinin fikirləri Azərbaycandakı islahatların təsirini daha yaxşı anlamaq baxımından mühüm əhəmiyyətə malikdir.



## Vergi islahatları ümidvericidir - bununla belə tədbirlərin davam etdirilməsi zəruridir, ASAN isə yenə də sıralamada birincidir

Sorğu nəticələri və seçilmiş Aİ şirkətləri ilə keçirilən müsahibələr və bağlı qrup görüşlərindən əldə olunan məlumatlar göstərir ki, bəzi mühüm sahələr üzrə islahat təşəbbüsləri nəzərəçarpacaq nəticələr verməyə başlayır. Ötən ilki sorğuda Aİ şirkətləri tərəfindən səbirsizliklə gözlənilən hərtərəfli vergi islahatları paketinin faydaları yeni rəhbərlik altında artıq özünü göstərməyə başlayıb. Təbii ki, bu Aİ şirkətləri tərəfindən müsbət dəyərləndirilir; belə ki, ötən il Aİ şirkətlərinin 29%-i vergi sistemini "zəif" qiymətləndirmişdisə, 2019-cu ildə bu göstərici 12%-ə enib.

Gömrük orqanlarının davamlı müasirləşdirilməsi və yenidən strukturlaşdırılması fonunda bu istiqamətdəki islahatlar 2017-ci il ilə müqayisədə, daha sürətli xarakter alıb: Ötən ilki sorğu ilə müqayisədə (15%) bu il daha az Aİ şirkəti (12%) elektron gömrük xidmətlərini zəif qiymətləndirir. Aİ şirkətləri hazırkı vergi və gömrük islahatlarını dəstəkləsələr də, onların genişləndirilməsini və dərinləşdirilməsini yenə də prioritet olaraq qeyd edirlər. Ölkədə biznes və investisiya mühitinin yaxşılaşdırılması üçün ən zəruri islahatların müəyyən edilməsi ilə bağlı suala cavab olaraq, sorğu iştirakçıları ötən il olduğu kimi, vergi və gömrük sistemində şəffaflığın daha da artırılmasını ən vacib amil olaraq qeyd edirlər.

2018-ci ildə əmək və sosial müdafiə sahəsində də fundamental dəyişikliklər və nəzərəçarpacaq irəliləyiş qeydə alınıb. Yerli dövlət qurumları və beynəlxalq təşkilatlarla əməkdaşlıq çərçivəsində həyata keçirilən islahatlar əsasən məşğulluq üzrə elektron xidmətlərin, eləcə də Nazirlik tərəfindən bir pəncərə sistemi vasitəsilə sadələşdirilmiş və qeyri-məhdud şəkildə göstərilən xidmətlərin genişləşdirilməsinə və ümumilikdə, sistemin potensialının, şəffaflığının və səmərəliliyinin artırılmasına yönəldilmişdir. Aİ şirkətlərinin demək olar ki, dörddə üçü bu islahat tədbirlərini orta və ya yaxşı kimi qiymətləndirir.

Aİ şirkətlərinin yeni yaradılmış qurumların səmərəliliyi barədə fikirləri isə təmkinlidir. Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin (2017-ci ilin dekabr ayında yaradılıb), Qida Təhlükəsizliyi Agentliyinin (fevral 2017-ci il), Maliyyə Bazarlarına Nəzarət Palatasının (fevral 2016-cı il), eləcə də İpoteka və Kredit Zəmanət Fondunun (dekabr 2017-ci il) yaradılması kimi islahatların səmərəliyinə dair müsbət rəylər bu il nisbətən zəifdir. Müzakirələr təsdiq edir ki, Aİ şirkətləri bu yeni qurumların plan və strategiyaların konkret icrasında və görünən nəticələrin əldə edilməsində daha fəal rol oynamasını gözləyirlər. Eyni zamanda, Aİ şirkətləri peşə təhsili sahəsindəki islahatların ixtisaslı kadr çatışmazlığı probleminin aradan qaldırılması istiqamətində hələ də tam nəticə verməməsindən narahatdırlar.

**Şəkil 1.** Azərbaycanda struktur islahatlarının səmərəliliyi



***ASAN** bu sualın ilk dəfə verildiyi 2017-ci ildən etibarən sıralamada **birincidir**.*

İndiyədək biznes mühitinin yaxşılaşdırılması üçün aparılan islahatlardan ASAN (Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi) bu sualın ilk dəfə verildiyi 2017-ci ildən etibarən sıralamada birincidir. Aİ şirkətləri ASAN e-viza portalının səmərəliliyini ötən sorğularda vurğulayıblar. Bu il isə Aİ şirkətlərindən Prezidentin 14 mart 2018-ci il tarixli fərmanına əsasən ASAN-ın tabeliyində yaradılan Elektron Hökumətin İnkişafı Mərkəzi tərəfindən görülən işin qiymətləndirilməsi xahiş olunub. Mərkəz ASAN viza, ASAN ödəniş, ASAN Finans kimi rəqəmsal xidmətlərin mərkəzləşdirilməsini və bütün dövlət qurumlarının informasiya sistemlərinin vahid elektron platformaya tam inteqrasiyasını nəzərdə tutur.

Məsələn, yeni yaradılan ASAN Finans maliyyə təşkilatları üçün dövlət informasiya resurslarına giriş təmin etməklə bank xidmətlərindən istifadə zamanı sənədləşmənin və bürokratiya yükünün minimuma endirilməsini hədəfləyir. Növbəti illərdə ASAN tərəfindən göstəriləcək vergi, gömrük, konsulluq və maliyyə xidmətlərinin sayının artırılması istiqamətində geniş işlərin aparıldığı bildirilir. Bunları nəzərə alaraq, Aİ şirkətlərinin 65%-i ASAN-nın tabeliyində olan Elektron Hökumətin İnkişafı Mərkəzinin yaradılmasını müsbət qiymətləndirir. Bu müsbət irəliləyiş fonunda sorğu iştirakçıları inanırlar ki, xırda korrupsiyanın minimuma endirilməsi və elektron hökumət sistemi vasitəsilə bürokratiyanın azaldılması istiqamətində görülən tədbirlər öz bəhrəsini verməyə davam edir.

***Vergi sistemini** səmərəli qiymətləndirən Aİ şirkətlərinin faiz nisbəti 2018-ci ildəki **33%**-dən **45%**-ə yüksəlib.*

Vergi orqanlarındakı fundamental restrukturizasiya və idarəetmədə dəyişikliklər fonunda dərinləşən və gücləndirilən vergi islahatlarının vergi yoxlamalarında daha çox şəffaflıq təmin edəcəyinə və daha dinamik vergi inzibatçılığı yaradacağına dair ümid ötən ilki sorğuda hiss olunurdu. Bu nikbinlik, sorğu iştirakçılarının bu ilki vergi islahatlarını daha yüksək qiymətləndirməsi ilə özünü doğrultdu.
1 yanvar 2019-cu il tarixindən etibarən yeni vergi qanunvericiliyinin qüvvəyə minməsi fonunda, vergi sistemini səmərəli qiymətləndirən Aİ şirkətlərinin faiz nisbəti 2018-ci ildəki 33%-dən 45%-ə yüksəlib. Bu, Aİ şirkətlərinin bu ilki fikirlərində nəzərəçarpan ən müsbət dəyişiklikdir.

Yeni qanunvericilikdə özəl sektora və sahibkarlığa dəstəyin göstərilməsi məqsədilə stimullaşdırıcı vergi təşviqlərinin və əhəmiyyətli vergi güzəştlərinin tətbiqi nəzərdə tutulur. Əsas məqsəd vergi ödəyicilərinin qanunlara riayət etməsinin artırılması və vergi bazasının genişləndirilməsi vasitəsilə ölkədə tam şəffaflığın təmin edilməsinə başlıca əngəl törədən "kölgə iqtisadiyyatı"nın miqyasının azaldılmasıdır.

Bu səyləri dəstəkləməklə yanaşı, Aİ şirkətləri, dəyişikliklərin gözlənilələndən daha tez icrasını asanlaşdırmaq və şirkətlərin yeni iqtisadi reallıqlara daha rahat uyğunlaşmasını təmin etmək məqsədilə həyata keçirilən dəstəkləyici tədbirlərin yetərsiz olduğunu düşünürlər. Bu səbəbdən, şirkətlərin rəyinə əsasən, köklü dəyişikliklərə uyğunlaşmaq üçün daha çox vaxt və dəstəyə, daha dəqiq məlumat mübadiləsinə, eləcə də bu sahədə tədbirlərin hərtərəfli və davamlı koordinasiyasına ehtiyac var.

*"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli Qanunu 20 dekabr 2018-ci il tarixində təsdiq edilmiş və 1 yanvar 2019-cu il tarixindən etibarən qüvvəyə minmişdir. Dəyişikliklər müsbət və ümidverici olsa da, şirkətlərə uyğunlaşmaq üçün kifayət qədər vaxt verilməyib və texniki yardım göstərilməyib. Gələcəkdə biznes icması ilə bu istiqamətdə daha geniş kommunikasiya və əməkdaşlıq qurulmalıdır.*

***Müsahibələr və bağlı qrup müzakirələri***

Bu il Aİ şirkətləri tərəfindən vergi islahatlarının yüksək qiymətləndirilməsi şərti xarakter daşıyır. Belə ki, Aİ şirkətləri qətiyyətlə bildirirlər ki, ölkədə biznes və investisiya mühitinin yaxşılaşıdırılması üçün geniş spektrli vergi islahatları davam etdirilməlidir. Rəylərə əsasən, artıq ödənilmiş vergilərin qaytarılması və ikiqat vergitutma ilə bağlı hazırkı qanunvericiliyə edilən son düzəlişlərə baxmayaraq, şirkətlər öz hüquqlarının icrasında hələ də ciddi çətinliklərlə üzləşirlər. Qeyd edilən səbəblər adətən vergi orqanları tərəfindən yaradılan süni və bürokratik əngəllər, əsaslandırılmamış iddialar və qərəzli qərarlar ilə bağlıdır. Bu səbəbdən, ümumilikdə, Aİ biznes icması bu istiqamətdə təkmilləşdirmə imkanının və ehtiyacının olduğunu bildirir və müvafiq olaraq, vergi islahatlarının bu il də hökumət gündəliyinin prioriteti olmasını istəyirlər.

*İkiqat vergitutma prosedurlarında mövcud boşluqların və çətinliklərin aradan qaldırılması olduqca önəmlidir. Eləcə də artıq ödənilmiş vergilərin qaytarılması çox mürəkkəb bir prosesdir və reallıqda işlək deyildir.*

***Peşəkar Fəaliyyətlər sektorundan Baş Menecer***

## TƏKLİF OLUNAN **5 ƏN VACİB** İSLAHAT

**17%** Vergi sistemində şəffaflığın artırılması

**16%** Gömrük sistemində şəffaflığın artırılması

**13%** Təhsil sisteminin şirkətlərin tələblərinə uyğunlaşdırılması

**13%** Hüquq sistemində şəffaflığın təmin edilməsi

**11%** Maliyyə sektorunun şəffaflığının və sabitliyinin gücləndirilməsi

# Gömrük sistemi "islahat yorğunluğunu" geridə qoyduqca, impuls güclənir; sosial islahatlar isə öz müsbət təsirini göstərməyə başlayır

Azərbaycan beynəlxalq ticarət və loqistika mərkəzi olmaq iddiasındadır. Bu səbəbdən, maneəsiz ticarətin timsalında gömrük prosedurlarının sadələşdirilməsi və uyğunlaşdırılması hər zamankından daha böyük önəm kəsb edir. Belə ki, Aİ biznes icmasının nöqteyi-nəzərindən gömrük prosedurlarının rəqəmsallaşdırılması gömrük islahatlarının əsas istiqamətlərindən biridir. E-bəyannamə sistemi və öncədən (mal gəlməmişdən öncə) bəyannamə xidmətinin yaxşılaşdırılması istiqamətində əldə olunan irəliləyiş Aİ şirkətləri tərəfindən bu il yüksək qiymətləndirilir. Belə ki, sorğu iştirakçılarının demək olar ki, yarısı bununla bağlı razılıqlarını ifadə edir. Bu tədbirlər aydın şəkildə gömrük rəsmiləşdirilməsi prosesini müəyyən dərəcədə sadələşdirib və insan amilini məhdudlaşdıraraq korrupsiya və rüşvət hallarını minimuma endirib.

Bununla belə, bu mexanizmlərin əhəmiyyətli uğuruna baxmayaraq, müsahibələr və bağlı qrup müzakirələrində e-bəyannamə sisteminin sadələşdirilməsi, funksionallığının artırılması və istifadəsinin asanlaşdırılması istiqamətində əlavə düzəlişlərin edilməsinin zəruri olduğu bildirilib. Elektron formaların dilinin qəliz olması və mürəkkəb tələbləri səbəbindən şirkətlər bir çox hallarda sənədlərinin düzgünlüyünü və uyğunluğunu təmin etmək məqsədilə gömrük brokerlərinin xidmətlərindən istifadə etmək məcburiyyətində qalırlar. Eyni zamanda, bir çox şirkət qeyd edir ki, malların sərhəddən keçirilməsini sürətləndirmək üçün nəzərdə tutulan könüllü bəyannamənin öncədən gömrük orqanlarına təqdim edilməsi reallıqda gömrük rəsmiləşdirilməsi prosesini sürətləndirmir.

*Korrupsiyanın azaldılması, şəffaflığın təmin edilməsi və gömrük xidmətlərinin rəqəmsallaşdırılmasında əhəmiyyətli irəliləyişlər əldə edilib. Sərhədlərdə rəsmiləşdirmə prosedurlarının sürətlənləndirilməsi, süni bürokratiyanın aradan qaldırılması və həqiqətən rəqabətli mühitin yaradılması üçün əlavə tədbirlər zəruridir. Bu baxımdan, Yaşıl Dəhliz sisteminin səmərəliliyini zaman göstərəcək.*

***Müsahibələr və bağlı qrup müzakirələri***

Avropa şirkətləri tərəfindən bu il vurğulanan digər önəmli məsələ 2016-cı ildə təqdim olunan Yaşıl Dəhliz rejiminin (1 fevral 2019-cu il tarixindən tətbiq olunur) tam işləkliyinin təmin edilməsi və saxtalaşdırmaya qarşı dayanıqlı mübarizə strategiyasının hazırlanmasıdır. Sistemin yaxşılaşdırılması və bu rejimdən yararlana biləcək şirkətlərin sayının artırılması istiqamətində müəyyən addımların atılmasına baxmayaraq, müsahibələr zamanı aparılan müzakirələr onu göstərir ki, Aİ şirkətləri Yaşıl Dəhliz təşəbbüsü ilə bağlı qayda və prosedurlar barədə kifayət qədər məlumatlı deyillər. Bu səbəbdən, gömrük orqanları şirkətlərin ehtiyaclarını və prioritetlərini daha yaxşı anlamaq, eləcə də özəl sektorun yeni gömrük qaydaları və qanunvericiliyə edilən ən son dəyişikliklər barədə məlumatlı olmasını təmin etmək üçün biznes nümayəndələri ilə yaxından əməkdaşlıq etməlidirlər.

Gömrük orqanları və şirkətlər arasında daha yaxın əməkdaşlığın zəruri olduğu digər istiqamət intellektual mülkiyyət hüquqlarını pozan mallara qarşı sərhəddə tədbirlərin görülməsidir. Bu il daha çox Aİ şirkəti saxtalaşdırmanı əsas təhlükələrdən biri kimi vurğulayaraq bildirir ki, bu, brendin nüfuzuna xələl gətirməklə yanaşı, müştərilərin təhlükəsizliyinə və sadiqliyinə təhlükə yaradır. Bütün bunları nəzərə alaraq, Azərbaycanda biznes və investisiya mühitinin yaxşılaşdırılması üçün ən zəruri islahatların müəyyən edilməsi ilə bağlı suala cavab olaraq, Aİ şirkətləri vergi sistemindən sonra ikinci ən önəmli sahə kimi gömrük sistemini qeyd edirlər.

*Bizi narahat edən məsələlərdən biri saxtla məhsullar və mallardır. Sərhədlərdəki nəzarət sistemi hələ də zəifdir və əlavə hüquqi məhdudiyyətlərin yaradılması bunu kompensasiya edə bilməz. Gömrük orqanları ölkəyə saxta məhsulların idxalının qarşısını almaq məqsədilə daha qəti tədbirlər görməlidirlər.*

***Elektrik və qaz təchizatı sektorundan Baş İcraçı Direktor***

Beynəlxalq praktikaya əsasən, mütərəqqi gömrük sistemi və nəticə etibarilə ticarətin asanlaşdırılması ixracın şaxələndirilməsinin təşviqində önəmli rol oynayır. Bütün bunlar, hökumət tərəfindən yerli istehsalata və qeyri-neft ixracına dəstək olaraq tətbiq edilən müxtəlif stimullaşdırıcı mexanimzlərlə birlikdə (onlayn ixrac portallarının təqdim edilməsi, ixrac subsidiyaları və sənaye və aqroparkların yaradılması), son illər ərzində əsasən kənd təsərrüfatını, kimya və metallurgiya sənayesini təşviq etmişdir. 2018-ci ildə ölkənin qeyri-neft ixracı 10% artmışdır. Buna baxmayaraq, ölkənin ümumi ixracının əsas hissəsi (91.2%) hələ də neft və qaz sektorunun payına düşür. Qeyri-neft məhsullarının ixracının təşviqi və stimullaşdırılması proqramı çərçivəsində sahibkarlara 15 milyon AZN məbləğində ixrac təşviqləri ödənilmişdir. Bundan əlavə, hesabatlara əsasən, kənd təsərrüfatına verilən subsidiyalar və güzəştli kreditlərin məbləği 370 milyon AZN-ə bərabər olmuşdur.[2] Bununla belə, bu tədbirlərin səmərəliliyi Aİ şirkətlərinin ixrac yönümlü tədbirlərə dair fikirlərində tam əks olunmur.

*Sorğu iştirakçıları **əmək bazarı və sosial müdafiə** islahatları barədə orta səviyyədə **nikbinlik** ifadə edirlər.*

Bu il sorğu iştirakçılarının 58%-i ixracın şaxələndirilməsinə göstərilən institusional dəstəyi orta və ya yaxşı kimi qiymətləndirir və bu göstərici 2018-ci ildəki 82%-dən aşağıdır. Sorğu iştirakçılarının yalnız 32%-i bu islahatları səmərəli hesab edir, digər 32%-i isə "yaxşı məlumatlı deyiləm" cavabını vermişdir. "Yaxşı" və "yaxşı məlumatlı deyiləm" fikirlərinin eyni sayda səs toplamasına əsasən demək olar ki, hökumət sahibkarların müsbət dəyişikliklər barədə məlumatlılığının artırılması və onların ümumi problemləri barədə məlumatlı olmaq üçün onlarla daha sıx ünsiyyətdə olmalıdır.

Əmək bazarında islahatların aparılması, sosial sistemin yaxşılaşdırılması və pensiyaların artırılması istiqamətində geniş spektrli iş aparılır. Bu səbəbdən, bu məsələ ilk dəfə olaraq bu ilki sorğuya daxil edilmişdir. Sorğu iştirakçıları son əmək bazarı və sosial müdafiə islahatları barədə orta səviyyədə nikbinlik ifadə edirlər, belə ki, onların 38%-i bu islahatları artıq səmərəli hesab edir. Sosial xidmətlərin əlçatanlığını sadələşdirən və şəffaflığı artıran e-sosial portalının yaradılması, eləcə də DOST (Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi) layihəsinin hüquqi və institusional işlərinin gözləniləndən daha tez tamamlanması yüksək qiymətləndirilir. Bir pəncərə sisteminin tətbiq olunduğu agentlik Prezidentin 9 avqust 2018-ci il tarixli fərmanına əsasən yaradılmışdır və 2019-cu ilin may ayında Bakıda inzibati binanın açılışı baş tutmuşdur. 2025-ci ilədək DOST mərkəzlərinin regionlarda da istifadəyə verilməsi gözlənilir.

## Aİ şirkətləri yeni yaradılan qurumların fəaliyyətlərinin yaxşılaşdırılmasını və daha konkret nəticələr ortaya qoymasını gözləyirlər

Kiçik və orta ölçülü müəssisələr (KOM) Avropa iqtisadiyyatının əsasını təşkil edirlər. Aİ-də biznes fəaliyyətinin 99%-i və özəl sektordakı məşğulluğun üçdə iki hissəsi onların payına düşür. Bundan əlavə, KOM-lar iqtisadi artım, innovasiya, iş yerlərinin yaradılması və sosial inteqrasiyanın təminatında önəmli rol oynayırlar. Şərq Tərəfdaşlığı ölkələri arasında KOM-ların iqtisadiyyatdakı payı Azərbaycanda ən aşağı səviyyədədir. Yol xəritələrində əks olunan plana əsasən, KOM-ların ÜDM-dəki payı 2020-ci ilədək 15%, 2025-ci ilədək isə 35%-ə çatacaq. 2025-ci ildən sonra bu rəqəmin 60%-ə qalxması gözlənilir. Son iki il ərzində KOM-ların rolunun və rəqabətədavamlılığının artırılması üçün zəruri olan institusional və təşkilati strukturun yaradılması istiqamətində əldə olunan irəliləyiş təqdirəlayiqdir. Ötən ilki sorğuda Aİ şirkətlərinin 32%-i Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin yaradılmasını yaxşı, 53%-i isə orta qiymətləndirmişdir. Bu il isə Aİ şirkətləri yeni yaradılan bu qurumun səmərəliliyi barədə narahatlıq ifadə edirlər. Belə ki, Aİ şirkətlərinin yalnız 15%-i agentliyin KOM-lar üçün səmərəli olduğunu, 35%-i isə onun fəaliyyəti barədə yaxşı məlumatlı olmadıqlarını bildirirlər.

Əslində, agentliyin bu sektorun gücləndirilməsi üçün güclü potensiala və əsaslı niyyətə malik olduğu hesab edilir. Bununla belə, müzakirələrə əsasən demək olar ki, davam edən texniki işlər (hələ ki) praktiki nəticələrə gətirib çıxarmamışdır. Bu, qismən islahatların həyata keçirilməsində müşahidə olunan yubanmalarla bağlı ola bilər. Məsələn, agentliyin nəzdində fəaliyyət göstərəcək KOB Evləri kimi əlavə struktur bölmələrinin yaradılması planlaşdırılsa da, hələ də həyata keçirilməmişdir. Bundan əlavə, sorğunun nəticələrinə əsasən bu qənaətə gəlmək olar ki, agentlik islahat təkliflərinin və tədbirlərinin müvafiqliyini təmin etməklə yanaşı, sahibkarlar arasında məlumatlılıq səviyyəsini artırmaq məqsədilə biznes icmasını uzunmüddətli strategiyası barədə məlumatlandırmağı və dövlət-özəl sektoru arasındakı dialoq platformasını daha da gücləndirməyi nəzərdən keçirməlidir.

*Şərq Tərəfdaşlığı ölkələri arasında **KOM**-ların iqtisadiyyatdakı payı Azərbaycanda ən **aşağı səviyyədədir**.*

Eyni sözləri 2018-ci ilin yanvar ayında fəaliyyətə başlamış Qida Təhlükəsizliyi Agentliyinə də şamil etmək olar. Yaradıldığı tarixdən etibarən, agentliyin təkmilləşdirmə tədbirləri gündəliyinə əsasən vergi, gömrük və ASAN-la əməkdaşlığın genişləndirilməsi, o cümlədən idxal və ixrac əməliyyatları üzrə məlumat mübadiləsinin asanlaşdırılması və normativ-hüquqi bazanın gücləndirilməsi daxildir. Ötən ilki sorğu agentliyin yaradılmasından dərhal sonra aparılsa da, Aİ şirkətlərinin 40%-i bu təşəbbüsü yüksək qiymətləndirmişdi. Lakin bu ilki sorğuda Aİ şirkətlərinin agentliyin səmərəliliyinə dair nikbinliyi azalmışdır. Aİ şirkətlərinin əksəriyyəti kənd təsərrüfatının təşviqi və qeyri-neft ixracına dəstək baxımından agentliyin yaradılmsını önəmli addım hesab etsə də, şirkətlərin yalnız 17%-i qurumu səmərəli qiymətləndirir (bu göstərici ötən il 40% olmuşdur), 37%-i isə agentliyin fəaliyyəti barədə yaxşı məlumatlı olmadıqlarını bildirir.

***Təhsil sistemi** hələ də Aİ şirkətlərini **ən çox narahat edən** məsələlərdən biridir.*

Təxirəsalınmaz islahat ehtiyaclarına gəldikdə, Aİ şirkətlərini ən çox narahat edən məsələlərdən biri təhsil sistemidir və bu, əsasən ixtisaslı kadrlara artan tələbatdan irəli gəlir. Hökumət PTT (Peşə Təhsili və Təlimi) sisteminin müasirləşdirilməsinin önəmini anlayaraq, 2016-cı ilin aprel ayında Peşə Təhsili üzrə Dövlət Agentliyini yaradılmasını təsdiq etdi. Agentliyə PTT sisteminin müasirləşdirilməsinə və əmək bazarı üçün yüksək ixtisaslı kadrların hazırlanmasına dair müvafiq tapşırıqlar verilib. Hökumət, eləcə də özəl sektorun rolunun əhəmiyyətli dərəcədə genişləndirilməsini nəzərdə tutan PTT üzrə yeni qanunvericilik bazası hazırlayıb.

Bununla belə, həmin vaxtdan etibarən PTT Agentliyi tərəfindən görülən islahat tədbirlərinin əksəriyyətinin yalnız cüzi nəticələr verdiyi görünür. Sorğu iştirakçılarının 34%-i bu istiqamətdə aparılan islahatlar barədə kifayət qədər məlumatlı olmadıqlarını bildirir, 22%-i isə agentliyin fəaliyyətini zəif qiymətləndirir. Məlumdur ki, təhsil sistemindəki dəyişikliklər adətən uzunmüddətli proseslərin nəticəsində baş verir. Bu səbəbdən, PTT islahatları olduqca ümidverici görünsə belə, sorğuda iştirak edən şirkətlər bu islahatların həqiqi səmərəliliyinin tam olaraq yalnız müəyyən müddətdən sonra qiymətləndirilə biləcəyinə inanırlar.

Təhsil və PTT sistemi ilə bağlı Aİ şirkətləri belə hesab edirlər ki, texniki infrastrukturun müasirləşdirilməsi əhəmiyyətli dəyişikliklərin əldə edilməsi üçün yetərli deyildir; şirkətlərin ehtiyaclarına daha yaxşı cavab verən hərtərəfli təhsil sisteminin yaradılması və peşə təlimi proqramlarının hazırlanmasında özəl sektorun iştirakının gücləndirilməsi islahatlar gündəliyində vacib amillər olaraq yer almalıdırlar. Bu baxımdan, agentlik son dəyişikliklərin nəticələri barədə məlumatlılığın artırılması, eyni zamanda peşə təhsili və təliminin inkişafına dair strateji yol xəritəsinin uğurlu şəkildə həyata keçirilməsi istiqamətində sosial və dövlət-özəl tərəfdaşlığının təşviqi məqsədilə iştiraka əsaslanan platforma yaratmalıdır.

*Şirkətlər arasında PTT Agentliyi və onun fəaliyyətləri barədə məlumatlılıq azdır. Agentlik özəl sektorun hazırkı layihələr və müsbət nailiyyətlər barədə məlumatlandırılması məqsədilə onlarla daha sıx əməkdaşlıq qurmalıdır.*

***Müsahibələr və bağlı qrup müzakirələri***

## Maliyyə və hüquq sahəsindəki islahatlar gücləndirilmədiyi təqdirdə, əldə olunan nailiyyətlərin təsir qüvvəsi vaxt keçdikcə azala bilər

2016-cı ildəki tənəzzül xüsusilə Azərbaycanın maliyyə sektorunda dərin izlər qoydu. Neft qiymətlərinin kəskin düşməsi və milli valyutanın iki dəfə devalvasiyaya uğramasından sonra 2016-cı ilin yanvar ayında əmanətlərin çoxu xarici valyutada olduğundan dollarlaşma səviyyəsi 82,5%-ə[3] , qeyri-işlək kreditlər 24%-ə[4] , illik inflyasiya isə ikirəqəmli həddə, 12,9%-ə çatdı. Hökumət vəziyyəti düzəltmək üçün bir sıra tədbirlər gördü. Banklar kapital tələblərini qarşılamaq baxımından ciddi təzyiqə məruz qaldığından, MBNP (Maliyyə Bazarlarına Nəzarət Palatası) tərəfindən 11 bankın lisenziyası ləğv olundu, Azərbaycan Beynəlxalq Bankı isə hökumətin konsolidasiya proqramı əsasında yenidən kapitallaşdırıldı. Maliyyə resurslarına çıxış imkanlarının genişləndirilməsi məqsədilə 2017-ci ildə İpoteka və Kredit Zəmanət Fondu, sektorda məlumat mübadiləsi və şəffaflığın artırılması üçün isə 2018-ci ilin əvvəlində özəl Kredit Bürosu yaradıldı.

Üç ildən, yeni ilkin çətinliklərin öhdəsindən qismən də olsa gəlindikdən sonra, banklara olan biznes etimadı tədricən bərpa olunur. 2018-ci ilin əvvəlindən etibarən inflyasiya əhəmiyyətli dərəcədə azalaraq 2,3%-ə enib. Bu, hökumətin düşünülmüş pul siyasəti, sabit valyuta məzənnəsi və gözləniləndən daha yüksək neft qiymətləri ilə bağlıdır. Bu, Mərkəzi Banka pul siyasətini yumşaltmağa və uçot dərəcəsini 2018-ci ildəki 15%-dən 2019-cu ilin aprel ayında 8,75%-ə endirməyə imkan verdi. Dollarlaşma səviyyəsinin yüksək olmasına baxmayaraq (2019-cu ilin aprel ayında banklarda əmanətlərin 60%-i hələ də dollarla saxlanılır), manat əmanətlərinin nisbəti 2017-ci ildəki 27,6%-dən 33,9%-ə (mart 2019) yüksəlib.[5] Bundan əlavə, Prezidentin devalvasiya səbəbindən fiziki şəxslərin artan problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında imzaladığı fərmanı (28 fevral 2019-cu il), çox güman ki, ictimaiyyətin bank sektoruna etimadını bərpa etməyə dəstək olacaq və sektorda dərin dəyişikliklərin aparılması üçün yeni stimul yaradacaq.

Ümumilikdə götürsək, bankların ümumi sağlamlığı böhrandan sonra müəyyən qədər yaxşılaşıb. Bununla belə, beynəlxalq reytinq agentliklərinin də (məsələn, Moody's, Fitch) vurğuladığı kimi, sektor hələ də olduqca zəifdir və potensial xarici şoklara qarşı həssasdır. Bundan əlavə, özəl sektorun kreditləşməsi gözlənildiyindən daha aşağı səviyyədədir. Sektor rəqabətədavamlı deyil, pərakəndə haldadır və iqtisadiyyatın həcmi ilə müqayisədə olduqca kiçikdir. Azərbaycan hələ də qeyri-işlək kreditlərin həcminin çox olmasından (2018-ci ildə ümumi kreditlərin 17%-i) əziyyət çəkir.[6]

*Müzakirələrdə kreditlərin **yüksək faiz dərəcəsi** ilə verilməsi və ödəmə müddətinin qısa olması şirkətlərin üzləşdiyi **əsas çətinlik** kimi vurğulanır.*

Müzakirələrdə kreditlərin yüksək faiz dərəcəsi ilə verilməsi və ödəmə müddətinin qısa olması şirkətlərin üzləşdiyi əsas çətinlik kimi vurğulanır. Şübhəsiz, maliyyə resurslarına adekvat çıxışın olmaması xüsusilə KOM-lara mənfi təsir göstərir. Bu, sorğu iştirakçılarının əksəriyyətinin (38%) İpoteka və Kredit Zəmanət Fondunun təşəbbüsləri barədə məlumatsız olmasının, 25%-nin isə qurumun fəaliyyətini səmərəsiz qiymətləndirməsinin səbəbini izah edə bilər. Maraqlıdır ki, bu nəticələr ötən ilki göstəricilərdən fərqlidir. Belə ki, ötən il Aİ şirkətləri Kredit Zəmanət Fondunun yaradılmasına dair nikbinlik ifadə etmişdilər. Onlar hesab edirlər ki, rəqabətcil maliyyə institutları ilə yanaşı, kreditlərin verilməsinin genişləndirilməsi üçün daha güclü maliyyə vasitəçiliyi, yeni və səmərəli maliyyə alətləri və daha müasir idarəetmə zəruridir.

*Kredit Zəmanət Fondu tərəfindən müəyyən edilən meyar və şərtlər olduqca sərtdir. Şirkətlər hesab edirlər ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu sahibkarların dəstəklənməsi və maliyyə resurslarına çıxış imkanlarının yaradılması istiqamətində daha yaxşı və səmərəli iş apara bilir.*

***Maliyyə sektorundan Baş İcraçı Direktor***

Bundan əlavə, müsahibələr və bağlı qrup müzakirələrində vurğulanır ki, məhdudlaşdırıcı tədbirlər və yüksək bürokratiya maliyyə sektorunun inkişafına mənfi təsir göstərir. Sektora nəzarət və yoxlama funksiyaları ilə yanaşı, MBNP banklarla daha çox əməkdaşlıq etməli və güclü tərəfdaşlıqlar yaratmalı və beləliklə, onlara problemlərin daha məhsuldar və səmərəli şəkildə həll edilməsi istiqamətində zəruri dəstəyi göstərməlidir. Bu il şirkətlərin yalnız 22%-i MBNP tərəfindən görülən tədbirləri səmərəli qiymətləndirir, digər 26%-i isə qurumun fəaliyyəti barədə yaxşı məlumatlı olmadıqlarını bildirir. Aİ şirkətləri belə hesab edirlər ki, bank sektorunu daha da sağlamlaşdırmaq, gələcək xarici şoklara qarşı davamlılıq qabiliyyətini artırmaq, bankların portfellərini şaxələndirmək və maliyyə vəsaitlərinə çıxışla bağlı əngəlləri aradan qaldırmaq üçün daha nəticə yönümlü, davamlı və müəyyən vaxt çərçivəsini əhatə edən tədbirlərin görülməsi zəruridir. Bu baxımdan, daha çox xarici kommersiya banklarının ölkənin bank sektoruna cəlb edilməsi, eləcə də Azərbaycan Beynəlxalq Bankının özəlləşdirilməsi bank sektorundakı risklərin azaldılması və əlverişli mühitin yaradılması üçün başlıca prioritetlərdəndir.

*Maliyyə institutlarının, hal-hazırkı gələcəyə baxışı sektorun liberallaşdırılmasından daha çox nəzarətə, bürokratiya və ciddi tənzimləyici məhdudiyyətlərə əsaslanır. Qərarlar gec verilir və onların icra tempi ümumulikdə aşağıdır. Bütün bunlar, eləcə də dayanıqlı strategiyanın və sektor üzrə uzunmüddətli gələcəyə baxışın olmaması innovativ alətlər və yeni maliyyə instrumentlərinin tətbiqinə imkan vermir.*

***Maliyyə sektorundan İdarəedici Partnyor***

Bu müşahidələr BVF, Dünya Bankı və AYİB kimi beynəlxalq qurumların məlumatları və təhlilləri ilə tam uyğunluq təşkil edir. Bu baxımdan, AİB-in 2018-ci il noyabr tarixli "İqtisadi şaxələndirmə məqsədilə qeyri-bank maliyyəsinin və alternativ maliyyə alətlərinin inkişaf etdirilməsi" layihəsini və eləcə də AYİB-in 2019-2024-cü illəri əhatə edən Azərbaycan üzrə strategiyasını (2019-cu ilin aprel ayında təsdiq edilmişdir) qeyd etmək olar. Bu kimi layihələrin, o cümlədən beynəlxalq təşkilatlarla imzalanan strateji əməkdaşlıq müqavilələrinin maliyyə sektorunun inkişafının gücləndirilməsi və iqtisadi artımda bu sektorun rolunun artırılması üzrə qoyulan hədəflərin əldə edilməsini sürətləndirəcəyi gözlənilir. Beləliklə, bu il maliyyə sektorunda şəffaflığın və sabitliyin artırılması prioritet islahatlardan biri hesab edilir və hüquq sistemində şəffaflığın təmin edilməsi üzrə islahatlardan sonra yer alır.

***Məhkəmə və hüquq** sistemində **köklü islahatların** aparılmasına dair çağırışlar bu ilki sorğuda daha qabarıq şəkildə özünü göstərir.*

Sonuncu məsələyə gəldikdə isə ölkə iqtisadiyyatına xarici investisiyaların qoyuluşunun artan önəmi fonunda etibarlı hüquq sisteminin yaradılması, məhkəmə qərarlarının şəffaflığının təminatı və onların vaxtında və düzgün icrası hər zamankından daha vacibdir. Məhkəmə və hüquq sistemində köklü islahatların aparılmasına dair çağırışlar bu ilki sorğuda daha qabarıq şəkildə özünü göstərir və Prezidentin 1 mart 2019-cu il tarixli təlimatı ilə səsləşir. Sorğuda iştirak edən şirkətlərin 41%-i hüquqi dəqiqliyi qeyri-qənaətbəxş qiymətləndirir (bu barədə daha ətraflı məlumat üçün Fəsil 3-ə baxın). Aİ şirkətlərinin rəyinə əsasən, bu sahədəki mövcud problemlər – məhkəmələrin qeyri-səmərəliliyi, məhsuldarlıq və rəqəmsallaşma səviyyəsinin aşağı olması, şəffaflığın və obyektivliyin çatışmazlığı - təxirəsalınmadan həll edilməli olan önəmli məsələlərdir. Bundan əlavə, hakimlərin və hüquqşünasların təlimləndirilməsi və təhsilləndirilməsi sistemə olan etimadı artırmaq üçün vacib hesab olunur.

*"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" **Prezidentin Fərmanı** ölkədə ümumi biznes və investisiya mühitinin inkişafında **yeni mərhələnin** başlanğıcı baxımından çox önəmlidir.*

Bu baxımdan, "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Prezidentin 3 aprel 2019-cu il tarixli Fərmanı ölkədə ümumi biznes və investisiya mühitinin inkişafında yeni mərhələnin başlanğıcı baxımından çox önəmlidir. Qeyd etmək lazımdır ki, sözügedən Fərmanın imzalandığı tarix bu hesabatın hazırlandığı müddətə təsadüf edir. Prezident tərəfindən müəyyən edilən hərtərəfli islahat proqramı bu ilki sorğuda və üzbəüz müzakirələrdə iştirak edən Avropa şirkətləri tərəfindən vurğulanan qanunvericilik, institusional və praktiki məsələləri əhatə edir. İslahatda nəzərdə tutulan vergi və gömrük məsələləri ilə bağlı işlər üzrə ixtisaslaşmış məhkəmənin təsis edilməsini, mediasiya təşkilatının yaradılmasını, eləcə də məhkəmə qərarlarının icrası üzrə alternativ mexanizmlərin təşviqini xüsusilə qeyd etmək lazımdır. Bu tədbirlər, və eləcə də, hakimlərin sosial rifahının yaxşılaşdırılması və məhkəmə infrastrukturunun inkişaf etdirilməsi, biznes etimadını artırmaqla ölkədəki investisiya mühitinə töhfə verəcək.

*Azərbaycanda məqbul, şəffaf və ədalətli hüquq sistemi yaradılmasa, şirkətlər aparılan vergi və gömrük islahatlarından tam yararlana bilməyəcəklər.*

***Neft və qaz sektorundan Baş Menecer***

Nəticə etibarilə belə qənaətə gəlmək olar ki, bu il bir çox sahədə irəliləyiş müşahidə olunur, lakin ölkədəki biznes və investisiya mühitini dəyişdirmək üçün hələ çox iş görülməlidir. İqtisadi şaxələndirmə və biznes mühiti ilə bağlı fikirlərin yaxşılaşdırılması üçün əlavə tədbirlərlə yanaşı, islahat gündəliyinin davam etdirilməsi üzrə planların həyata keçirilməsi, onların səmərəli icrasına və vaxtlı-vaxtında yerinə yetirilməsinə nəzarət edilməsi, eləcə də onların irəliləyişinə əngəl törədən amillərin aradan qaldırılması zəruridir.



# FƏSİL 2

## Makroiqtisadi və sektordakı vəziyyət: Aİ biznes perspektivləri

İki devalvasiyanın və 20 il ərzində ilk iqtisadi azalmanın (2016-cı ildə -3,1%) yaşandığı bir neçə təlatümlü ildən sonra 2018-ci ildə Azərbaycan iqtisadiyyatının artım tempi 1,4%-ə çatdı. Neft hasilatının və neft ixracının qismən artması nəticəsində neft sektorunda dörd illik geriləmədən sonra 0,6% artım qeydə alındı. Qeyri-neft sektoru 1,8% artsa da, bu sektorun ÜDM-də payı 2016-cı ildəki 65,8% göstərici ilə müqayisədə 2018-ci ildə azalmağa davam edərək 58,5% oldu. 2017-ci ildə baş vermiş 4,2% azalmadan sonra sənayedə 1,5% artım qeydə alındı. Bu, əsasən dağ-mədən (0,4%) və istehsalat (7,9%) sektorlarındakı böyümə ilə bağlıdır. Şahdəniz 2 yatağından qaz təchizatına başlanması qaz hasilatında 7% artıma səbəb olsa da, 2018-ci ildə kapital investisiyalarının 4,4% azalması tikinti sektorundakı geriləməni (2017-ci ildəki 1,5%-dən) 9%-dək artırmışdır. Lakin kənd təsərrüfatı (4,6%), turizm (7,6%) və nəqliyyat (7,8%) sahələrindəki artım bu azalmanı kompensasiya etmişdir.[7]

BVF artımın 2019-cu ildə 3,4% olacağını, 2020-ci ildə isə 3,1% səviyyəsində qalacağını proqnozlaşdırır. Bu proqnoz, məzənnə sabit qaldıqca və hökumət fiskal tədbirləri davam etdirdikcə, dövlət investisiyalarının və yerli istehlakın artmasını əks etdirir. Ortamüddətli artım perspektivi isə nisbətən sabit qalan neft qiymətləri və Şahdəniz 2 yatağından qaz hasilatının artmasına əsaslanır. Hökumətin kənd təsərrüfatı, nəqliyyat, turizm, o cümlədən digər sektorların infrastrukturunun müasirləşdirilməsinə qoyulan sərmayələri artırması nəticəsində tikinti sektorunda da bu ilki azalmadan sonra 3%-lik artım gözlənilir.[8] İqtisadiyyat Nazirliyi qeyri-neft sektorunda ÜDM-nin 2019-cu ildə 3,9% artacağını proqnozlaşdırır.

İnflyasiyanın aşağı düşməsi və müsbət iqtisadi perspektiv fonunda, hökumət iqtisadi inkişafı təşviq etmək məqsədilə büdcə xərclərini yaxın gələcəkdə artırmağı planlaşdırır. Neft gəlirlərinin yenidən artması nəticəsində növbəti illərdə dövlət büdcəsi əsasən neft və qaz gəlirləri hesabına formalaşacaq. Yeni fiskal qaydaların və ortamüddətli xərclər çərçivəsinin qəbulu (məsələn, illik konsolidasiya olunmuş xərc artımına qoyulan nominal 3% məhdudiyyət) daha düşünülmüş və təxmin edilə bilən fiskal siyasətin yürüdülməsinə imkan yaratsa da, gələcəyə baxdıqda, zəif olan maliyyə sistemindəki həssaslıqlar və islahatların icrasında mümkün yubanmalar hələ də əsas risklər sırasında qalırlar.

**Şəkil 2.** Orta məzənnə və inflyasiya səviyyəsi




*Mənbə: AMB, AİB (15 aprel 2019)*

**Şəkil 3.** Sektorlar üzrə ÜDM artımı




*Mənbə: DSK, BVF (15 aprel 2019)*

# Aİ şirkətlərinin biznesə dair sabitləşən fikirləri iqtisadi güclənmənin əsas əlamətidir

Ötən il xüsusilə qısamüddətli iqtisadi perspektivlərlə bağlı nikbinlik çox yüksəlmişdi və bu, bütün sektorlar üzrə müşahidə olunurdu. Sorğu iştirakçılarının demək olar ki, yarısı iqtisadi perspektivin güclənəcəyini gözləyirdi, Aİ şirkətlərinin 51%-i isə 2018-ci ildəki vəziyyəti qənaətbəxş hesab edirdi. Aİ şirkətlərinin biznesə dair fikirlərindəki müsbət dəyişiklik aşağı templi olmasına baxmayaraq, bu il də davam edir. Aİ şirkətlərinin böyük əksəriyyəti, yəni 64%-i 2019-cu ildə sabit iqtisadi artım, yalnız 10%-i isə iqtisadi vəziyyətin pisləşəcəyini gözləyir. Bu, təxminən ötən ilki sorğuya bənzər nəticədir və 2017-ci ildəki (47%) və 2016-cı ildəki (86%) göstəricilərdən daha yaxşıdır. Eyni zamanda, sorğu iştirakçılarının 74%-i hazırkı iqtisadi vəziyyətin qənaətbəxş və ya güclü olduğunu hesab edir. Bu, ötən ilki göstəricidən (65%) qismən, 2017-ci ildəki (33%) və 2016-cı ildəki (19%) göstəricilərdən isə əhəmiyyətli dərəcədə yüksəkdir.

Aİ şirkətləri arasında öz sektorları, həmçinin öz şirkətlərindəki cari vəziyyətlə bağlı nikbinlikdə müəyyən sabitləşmə müşahidə olunur. Cari vəziyyəti qənaətbəxş/güclü hesab edən Aİ şirkətlərinin sayında cüzi artım olsa da (2018-ci ildəki 67% ilə müqayisədə 2019-cu ildə 77%), sorğu iştirakçılarının yalnız 16%-i öz sektorlarındakı cari vəziyyəti güclü kimi qiymətləndirir. 2018-ci ildə isə bu göstərici 21% idi. Eyni hal şirkət səviyyəsində də müşahidə olunur. Bir tərəfdən, Aİ şirkətlərinin böyük əksəriyyəti (90%) cari vəziyyəti müsbət (qənaətbəxş/güclü) hesab edir. Bu, ötən ilki göstərici ilə (84%) müqayisədə cüzi artım deməkdir. Bununla belə, Aİ şirkətlərinin yalnız 24%-i şirkətlərindəki cari vəziyyəti güclü kimi qiymətləndirir və bu, 2018-ci ildəki (37%) göstəricidən olduqca aşağıdır.

Şəkil **4**. Cari vəziyyətin qiymətləndirilməsi, 2016-2019




Şəkil **5**. Perspektivlərin qiymətləndirilməsi, 2016-2019




İqtisadiyyatın sabitləşməsindən sonra biznes perspektivlərinin də stabilləşməsi müşahidə olunur. Bu müsbət hal olsa da, hal-hazırda aşağı səviyyədədir. 2018-ci ildəki göstərici ilə müqayisədə (52%), daha az sayda sorğu iştirakçısı (30%) mənsub olduğu sektorun 2019-cu ildə daha yaxşı fəaliyyət göstərəcəyini gözləyir. Sektorlarda dinamizmin azalması müvafiq olaraq, şirkətlərin öz perspektivlərini də orta səviyyədə qiymətləndirmələri ilə nəticələnir. Bu ilki sorğuda iştirak edən Avropa şirkətlərinin yalnız 35%-i gələcək perspektivləri barədə nikbindir, 2018-ci ildə isə sorğuda iştirak edən şirkətlərin əksəriyyəti (55%) şirkətlərinin daha yaxşı fəaliyyət göstərəcəyini gözləyirdi. Bununla belə, ötən illə müqayisədə qismən daha az sayda Aİ şirkəti sektordakı vəziyyətin və şirkətin fəaliyyətinin pisləşəcəyini gözləyir.

Bir çox hallarda, sabitləşən perspektivlər həm də gəlir və kapital xərcləri lə bağlı gözləntiləri əks etdirir. 2016-cı ildən 2018-ci ilədək hər il Aİ şirkətlərinin gəlirlərin artacağına dair inamları çoxalıb. Bu ilki sorğuda ilk dəfə gəlirlərlə bağlı proqnozda 7% azalma müşahidə olunur. Bununla belə, sorğuda iştirak edən Aİ şirkətlərinin 41%-i gəlirlərinin artacağını, az sayda şirkət isə azalacağını gözləyir. Bu ilki sorğuda ən fəal iştirak edən sektorlar arasında gələcək perspektivlərə ən az etimad göstərən Su təchizatı, Kanalizasiya, Tullantıların idarə edilməsi və emalı sektorudur: bu sektorda fəaliyyət göstərən 8 şirkətdən 4-ü 2019-cu ildə gəlirlərinin azalacağını gözləyir.

*Bu ilki orta səviyyəli iqtisadi perspektivlərin əsasında stabil neft qiymətləri və sabit valyuta məzənnəsi durur. Xarici şirkətlərlə həyata keçirilən böyük neft və qaz layihələri iqtisadiyyatı sabit, lakin hələ də neft gəlirlərindən asılı saxlayacaq. Bu səbəbdən, hökumət gələcəyi düşünərək alternativ və dayanıqlı inkişaf mənbələrinin yaradılması üçün daha praktiki planların qəbul edilməsini nəzərdən keçirməlidir.*

***Neft və qaz sektorundan Baş Menecer***

Eləcə də, ötən ilki sorğu ilə müqayisədə daha az sayda Aİ şirkəti kapital xərclərini artırmağı planlaşdırır, şirkətlərin 45%-i isə 2019-cu ildə investisiya dinamikasının sabit qalacağını gözləyir. Bu baxımdan yalnız Dağ-Mədən, Neft və Qaz sektoru istisna təşkil edir. Belə ki, bu sektordakı şirkətlərin nisbətən daha çoxu (18-dən 9-u) hasilat, inkişaf və istehsal üzrə böyük layihələr fonunda sərmayələrini artırmağı planlaşdırır. Bundan əlavə, yeni proqramlar və təşəbbüslər Elektrik enerjisi, Qaz, Buxar və Kondisiyalaşdırılmış hava ilə təchizat sektoruna növbəti üç il ərzində investisiyaların qoyuluşu üçün təməl yaratmışdır. Bu səbəbdən, bu sektorda fəaliyyət göstərən 8 şirkətdən 4-ü 2019-cu ildə kapital xərclərini artırmağı planlaşdırır.

**Şəkil 6.** Şirkətlərin əsas fəaliyyət göstəriciləri




Orta səviyyəli fəaliyyət və kapital xərcləri gözləntilərinə baxmayaraq, sorğuda iştirak edən şirkətlər bu il məşğulluq strategiyalarında əsaslı azalmalar planlaşdırmırlar. İxtisaslı kadr çatışmazlığının böyük problem olduğunu nəzərə alaraq (növbəti fəsildə bu barədə daha ətraflı məlumat verilib), yaxşı işçilərin tapılması və şirkətdə saxlanılması Aİ şirkətlərinin strateji maraqları çərçivəsindədir. Sorğuya əsasən, əlavə işçi qüvvəsi götürməyi planlaşdıran Aİ şirkətlərinin sayında ötən il ilə müqayisədə cüzi artım (3%) müşahidə olunur. Bununla belə, ötən ilki sorğuda olduğu kimi, bir çox Aİ şirkəti (47%) hazırkı işçi sayını sabit saxlamağı, və yalnız 12% isə azaltmağı planlaşdırır. Maraqlıdır ki, Peşəkar, Elmi və Texniki fəaliyyətlə məşğul olan şirkətlər yeni kadrların işə götürülməsinə dair daha nikbindirlər; belə ki, sorğuda bu sahəni təmsil edən 18 şirkətdən 13-ü yeni işçilər axtarmağı planlaşdırır.

**Şəkil 6.1** Şirkətlərin əsas fəaliyyət göstəriciləri



Şübhəsiz, ixrac perspektivləri Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinin nə dərəcədə ixrac yönümlü olmağından asılıdır. Sorğu nəticələri göstərir ki, Aİ-ni Azərbaycana investisiya qoymağa təşviq edən əsas amil daxili bazarlara çıxış (27%) və daha az dərəcədə ixrac bazarlarına çıxış (7%) ilə bağlıdır. Beləliklə, ötən illərdə olduğu kimi, sorğuda iştirak edən Aİ şirkətlərinin təxminən yarısı ixracla məşğul olmadığını qeyd edir. Oxşar olaraq, sorğu iştirakçılarının 30%-i idxalla məşğul olmadıqlarını bildirir. Bu il Aİ şirkətlərinin idxalla bağlı gözləntiləri onların məhsullarının idxal faizindən asılı deyil. Şirkətlərin üçdə bir hissəsi (32%) 2019-cu ildə idxal səviyyəsinin sabit qalacağını, digər üçdə bir hissəsi isə artacağını (28%) gözləyir. Bu göstəricilər ötən ilki gözləntilər ilə təxminən eynilik təşkil edir.

**Şəkil 6.2** Şirkətlərin əsas fəaliyyət göstəriciləri




## Sektorlar üzrə Aİ şirkətlərinin fikirləri

Təəccüblü deyildir ki, bu ilki nəticələrdə müşahidə olunan ümumən sabitləşən iqtisadi vəziyyət və biznes mühiti ilə bağlı şirkətlərin fikirləri sektorlar üzrə də analoji orta səviyyəli nikbinlik yaradır. Bu nəticələr ötən ilki nəticələrlə yalnız qismən uyğunluq təşkil edir. Belə ki, çətinliklərlə müşayiət olunan tənəzzül illərindən sonra ötən il sektorlar əsasən cari vəziyyətin qənaətbəxş olduğunu və öz sektorları üzrə perspektivlərin gücləndiyini bildirmişdilər. Bu il də, Maliyyə və Sığorta sektoru bu baxımdan istisna təşkil edir və Aİ şirkətlərinin bu sektor barədə fikirləri nikbin deyildir. Sorğu nəticələrinin ətraflı təhlilinə əsasən, 2019-cu ildə cari vəziyyətdən ən az əmin olan sektor Maliyyə və Sığorta sektorudur; belə ki, sorğu iştirakçılarının 11-dən 6-sı bu sahəni zəif kimi qiymətləndirir (2018-ci ildə bu sektoru təmsil edən 8 Aİ şirkətindən 6-sı bu sahəni zəif kimi qiymətləndirmişdir) və yalnız bir şirkət bu sahəni güclü qiymətləndirir.

Bununla belə, stabil valyuta məzənnəsi və bu il sabitləşən inflyasiya fonunda maliyyə sektorunun qısamüddətli perspektivlərinə dair nikbinlik 2018-ci illə müqayisədə nəzərəçarpacaq dərəcədə artmışdır. "Sabit" və "daha yaxşı" cavablarının faiz nisbəti müvafiq olaraq, 46% (2018-ci ildə 38%) və 36% (2018-ci ildə 25%) artmışdır.

Ümumilikdə, bu il müxtəlif sektorlarda fəaliyyət göstərən Aİ şirkətləri arasında cari vəziyyətlə bağlı fikir ayrılıqları azdır. 2018-ci illə müqayisədə daha çox şirkət neytral mövqe tutaraq sektorlarının hazırkı fəaliyyətinin qənaətbəxş olduğunu bildirir və onların gələcəyə dair gözləntiləri bir qədər mülayimdir.

İKT sektorunu təmsil edən Aİ şirkətləri 2018-ci illə müqayisədə sektorlarındakı cari vəziyyətlə bağlı daha nikbindirlər. Şirkətlərin əksəriyyəti (7-dən 5-i) öz fəaliyyətlərini qənaətbəxş hesab edir. Lakin 2018-ci ildə 7 şirkətdən 3-ü sektorlarının fəaliyyətini zəif qiymətləndirmişdi. Bu il iqtisadi perspektivlərin sabitləşməsi fonunda İKT şirkətlərinin qısamüddətli perspektivlərlə bağlı fikirləri daha stabildir. Belə ki, sorğuda iştirak edən 7 şirkətdən 5-i sektorun 2019-cu ildə sabit qalacağını gözləyir (2018-ci ildə 7 şirkətdən 4-ü fəaliyyətin daha yaxşı olacağını gözləyirdi).

**Şəkil 7.** Sektorlar üzrə cari vəziyyətin qiymətləndirilməsi



**Şəkil 7.1** Sektorlar üzrə perspektivlərin qiymətləndirilməsi




2017-ci ildəki cüzi iqtisadi artımdan sonra Tikinti sektoru ilə bağlı nikbinlik davamlı olaraq artmışdır. Ötən ilə oxşar olaraq, sorğuda iştirak edən tikinti şirkətlərinin əksəriyyəti (9-dan 7-si) öz fəaliyyətlərinin qənaətbəxş/güclü olduğunu bildirir, 9-dan 6-sı isə 2019-cu ildə fəaliyyətlərinin stabilləşəcəyini gözləyir. Peşəkar, Elmi və Texniki fəaliyyətlə məşğul olan 18 Aİ şirkətindən 13-ü bu il öz sektorlarına inamlıdırlar (2018-ci ildə 22 şirkətdən 14-ü inamlı idi). Bununla belə, bu sektor 2018-ci illə müqayisədə 2019-cu ildəki perspektivləri barədə o qədər də nikbin deyil. Belə ki, gələcək perspektivlərinin “stabil” olacağını bildirən şirkətlərin faiz nisbəti (2018-ci ildəki 41%-dən) 67%-ə yüksəlsə də, “daha yaxşı” olacağını hesab edən şirkətlərin sayı isə (2018-ci ildəki 45%-dən 28%-ə) aşağı düşüb.

2018-ci ildə Dağ-mədən, Neft və Qaz və Nəqliyyat və Anbar təsərrüfatı sektorlarını təmsil edən şirkətlərin qısamüddətli perspektivlər barədə nikbinliyi nisbətən daha yüksək idi. Belə ki, birinci sektoru təmsil edən 18 şirkətdən 9-u, sonuncu sektorda fəaliyyət göstərən 11 şirkətdən 7-i “daha yaxşı” cavabını vermişdi. Bu, 2018-ci ildə neft və qaz sektorunda yeni kəşfiyyat və inkişaf layihələrinə, eləcə də yeni ticarət marşrutları və nəqliyyat dəhlizlərinin yaradılmasına əsaslanırdı. Davam edən layihələr fonunda, neft-qaz və nəqliyyat sektorlarında fəaliyyət göstərən şirkətlərin əksəriyyəti, müvafiq olaraq 61% və 60%-i, 2019-cu ildə perspektivlərin stabil olacağını gözləyir.

Aİ şirkətlərinin qısamüddətli iqtisadi perspektivlər barədə nikbinliyinin artdığı 2018-ci ildən fərqli olaraq, bu ilki nikbinlik nəzərəçarpacaq dərəcədə azdır. Belə ki, sorğuda iştirak edən şirkətlər nisbətən orta səviyyədə dinamik artım gözləyir. Bu il onlar üzləşdikləri çətinliklər və hələ də həllini gözləyən struktur problemləri ilə bağlı daha realistdirlər. Aİ şirkətləri hal-hazırda yeni iqtisadi reallıqlara daha yaxşı uyğunlaşdıqları və öz yaxın ətraflarında baş verənlərdən daha çox xəbərdar olduqları üçün, hökumətin gələcəyə dair uzunmüddətli strateji baxışının artıq daha aydın olmasını gözləyirlər. Bu fikirlər ilk baxışda düşündürücü olsa da, eyni zamanda dövlətin əldə olunan nəticələrlə kifayətlənməməsinə və ölkə iqtisadiyyatının müsbət mənada dəyişdirilməsi və cəlbedici investisiya məkanı olması üçün zəruri olan islahatları aparmasına zəmin yaradır.

*Ötən illərdə iqtisadiyyatda müşahidə olunan kəskin artım və tənəzzül dövrlərini nəzərə alaraq, bu il Aİ şirkətlərinin inkişafa dair gözləntilərinin stabilləşməsi yaxşı əlamətdir. Bununla belə, sabitliyin qorunub saxlanılması ölkənin uzunmüddətli strategiyası olmamalıdır.*

***Bağlı qrup müzakirələri***

# FƏSİL 3

## Yerli biznes mühitinin əsas göstəriciləri: fəaliyyət və çətinliklər

İslahatların əksəriyyəti ötən sorğularda Aİ şirkətləri tərəfindən biznes fəaliyyətinə birbaşa çətinlik törədən bəzi məsələləri artıq müvəffəqiyyətlə həll etmiş, yaxud həll etmək mərhələsindədir. Bununla belə, investisiya üçün əlverişli biznes mühitinin yaradılması hərtərəfli tədbirlər və islahatların aparılması üzrə uzunmüddətli öhdəlik tələb edir. Hal-hazırda Azərbaycan Aİ və digər ölkələrdən olan investorları cəlb etmək üçün dünya ölkələri ilə rəqabət aparır. Bu sahədə rəqiblərini geridə qoymaq üçün Azərbaycan investisiya ilə bağlı rəqabətədavamlı təşviqlər və geniş spektrli uzunmüddətli biznes imkanları təklif etməlidir.

Aİ Biznes Mühiti Sorğusunun əsas məqsədlərindən biri Aİ şirkətlərinin Azərbaycandakı biznes və investisiya mühiti ilə bağlı göstəricilərə dair fikirlərini öyrənməkdir. Bu, islahatlar yolunda indiyədək əldə olunmuş irəliləyişi müşahidə etməyə, çatışmazlıqları və ölkədə biznes fəaliyyətinə əngəl törədən amillərin miqyasını aşkar etməyə, eləcə də əlavə inkişaf tədbirlərini müəyyən etməyə imkan verir. Bu məqsədlə, sorğu biznes mühitinin üç əsas aspekti üzrə təsnifləşdirilmiş 25 yerli biznes amilinə dair Aİ şirkətlərinin fikirlərini işıqlandırmağı hədəfləyir:

**Əmək bazarındakı şərait**

**Aktiv biznes mühiti**

**İqtisadi siyasət və institutlar**



# Aİ şirkətlərinin biznes mühiti göstəricilərinə dair fikirləri

Bu ilki nəticələrin ətraflı təhlili biznes mühiti göstəricilərinin Aİ şirkətləri tərəfindən əksər hallarda "orta" səviyyədə qiymətləndirildiyini göstərir. Əslində, ötən ilki sorğuda 25 biznes mühiti göstəricilərindən yalnız 2-sinin pisləşdiyi (ixtisaslı kadr çatışmazlığı və gömrük qaydaları) qeyd olunmuşdu, bu il isə Aİ şirkətləri 17 göstəricinin pisləşdiyini düşünürlər.

Aşağıdakı reytinqlərlə bağlı nəzərəçarpan məqam ondan ibarətdir ki, hesabatın 2016-cı ildəki ilk nəşrindən etibarən ilk dəfə vergi yükünə, həmçinin vergi siyasəti və orqanlarının fəaliyyətinə dair fikirlərdə əhəmiyyətli dərəcədə müsbət dəyişiklik qeydə alınmışdır. Bu, son islahatların aydın nəticəsi olsa da, nəzərə almaq lazımdır ki, bu göstəricilər çox aşağı səviyyədən başlayıb və hələ də qənaətbəxş səviyyəyə çatmamışdır. Akademik təhsilin keyfiyyəti reytinqdə ən çox geriləyən amildir. Həmçinin peşə təhsilinin keyfiyyəti bu il zəif qiymətləndirilmişdir. Bu göstəricilər ötən ilki nəticələr ilə əhəmiyyətli dərəcədə təzad təşkil edir; belə ki, ötən il bu iki göstərici ortalamadan aşağı olsa da, ən müsbət dəyişikliyin müşahidə edildiyi göstəricilərdən idi.

Əslində, bu il siyasi və sosial sabitlik, Əmək Məcəlləsi qanunu və immiqrasiya siyasətləri, eləcə də gömrük rəsmiləşdirməsi prosedurları və əməyin dəyəri istisna olmaqla, biznesin bütün digər aspektlərinə dair narahatlıqların artması müşahidə olunur. Aİ şirkətlərinin biznes göstəriciləri ilə bağlı nikbinliyinin bu il nisbətən zəifləməsi aydın şəkildə göstərir ki, islahatlara başlamaq kifayət etmir; biznes və investisiya mühitinə müsbət təsir göstərməsi üçün islahat tədbirlərinin gücləndirilməsi və dayanıqlılığının təmin edilməsi olduqca önəmlidir.

**Şəkil 8.** Aİ şirkətlərinin fikrincə biznes mühiti göstəricilərində dəyişiklik, 2018-2019



# Əmək bazarındakı şərait

İnkişaf etməmiş əmək bazarı və ixtisaslı kadrların çatışmazlığı yalnız xarici investisiyaların cəlb edilməsini deyil, eyni zamanda islahatlar gündəliyinin həyata keçirilməsi və onun monitorinqini ləngidə bilər. Bu səbəbdən, keyfiyyətli təhsil və daha önəmli olan digər amil - əmək bazarının tələblərinə cavab verən ixtisaslı kadr təminatı güclü və biliyə əsaslanan iqtisadi inkişaf üçün böyük əhəmiyyət kəsb edir.

Aİ şirkətləri bu il əmək bazarını daha zəif qiymətləndirirlər. 2018-ci illə müqayisədə bütün əmək bazarı göstəricilərindən yalnız Əmək Məcəlləsi qanunu və immiqrasiya siyasəti müsbət irəliləyiş nümayiş etdirirlər. Hələ də orta səviyyədən yüksək olmasına baxmayaraq, işçilərin ixtisas və bacarıqları və məhsuldarlığına dair göstəricilərdə bu il cüzi geriləmə müşahidə olunur. Ardıcıl olaraq dördüncü ildir ki, akademik və peşə təhsilinin keyfiyyətinin, eləcə də ixtisaslı kadrların çatışmazlığının Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinə böyük əngəl törətdiyi qeyd olunur.

## Təhsilin keyfiyyətinin aşağı olması və ixtisaslı kadr çatışmazlığı səbəbindən gələcək tutqun olaraq qalır

Aİ şirkətlərinin artan gözləntiləri və standartları fonunda hazırkı işçi qüvvəsi və şirkətlərin tələbləri arasındakı boşluq hər il böyüməkdədir. İxtisaslı kadrların mövcudluğunu qənaətbəxş kimi qiymətləndirən Aİ şirkətlərinin sayı 2018-ci ildəki 31%-dən 2019-cu ildə 21%-ə enib. İxtisaslı kadrların tapılması bütün sektorlar üçün çətinlik yaradır, lakin bu il Maliyyə və Sığorta sektorunu təmsil edən Aİ şirkətləri (11-dən 5-i) bu barədə nisbətən daha çox narahatdırlar. Müzakirələrə əsasən belə qənaətə gəlmək olar ki, gənc işçilərdə peşə və texniki bacarıqlardan əlavə, həm də kommunikasiya, rəhbərlik, rəqəmsal və dil bacarıqları kimi sosial-davranış və qeyri-texniki bacarıqlar çatışmır.

Digər tərəfdən, Dağ - mədən, Neft və Qaz sektoru ixtisaslı kadr çatışmazlığından ən az narahatlıq ifadə edən sektordur; belə ki, 18 şirkətdən yalnız 3-ü bu barədə narazılığını bildirir və 10 sorğu iştirakçısı bu göstəricini orta səviyyədə qiymətləndirir.

Əslində, "2018-ci il üzrə Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan ixtisaslı kadrların tapılmasının asanlığı baxımından 140 ölkə arasında 31-ci yeri tutur. Bu yüksək reytinq qismən əmək bazarında həyata keçirilən son islahatlar, eləcə də ixtisaslı kadr çatışmazlığının dünyanın digər ölkələrində fəaliyyət göstərən Baş İcraçı Direktorları da narahat edən əsas təhlükələrdən biri olması faktı ilə izah oluna bilər.[9]

*Azərbaycanın əmək bazarı imkan və faydalar baxımından rəqabətədavamlı olmadığından ixtisaslı kadrlar xaricdə daha rəqabətcil iş axtarışındadırlar. Vergi güzəştlərinin və daha yüksək əmək haqqının növbəti illərdə vəziyyətin yaxşılaşmasına təsir göstərəcəyi gözlənilir.*

***Bağlı qrup müzakirələri***

**Şəkil 9**. Əmək bazarındakı göstəricilərin qiymətləndirilməsi




*Azərbaycanın təhsil sistemi olduqca nəzari yönümlüdür, tələbələrə praktiki təcrübə, yaxud praktiki bilik öyrədilmir. Bu səbəbdən, əmək bazarında çalışan gənc işçilər müasir bilik və praktiki bacarıqlara malik deyillər.*

***Neft və qaz sektorundan Baç İcraçı Direktor***

Bu il bir çox Aİ şirkəti akademik təhsil və peşə təliminin keyfiyyətinə tənqidi yanaşır. Zəruri bacarıqlara malik münasib kadrların tapılmasında şirkətlərin qarşılaşdıqları çətinlikləri nəzərə aldıqda, bu, təəccüb doğurmur. Sorğu iştirakçılarının 44%-i ölkədə akademik təhsilin keyfiyyətindən narazılıq ifadə edir. Aİ şirkətlərinin ən tez-tez vurğuladığı qayğılar təhsil sistemində praktiki və müasir metodların çatışmazlığı və rəqəmsallaşmanın aşağı səviyyədə olmasıdır.

Bu il bu baxımdan müsbət mənada istisna təşkil edən yeganə sahə Dağ-mədən, Neft və Qaz sektorudur. Belə ki, bu sektoru təmsil edən 18 şirkətdən 12-si akademik təhsili orta səviyyədə qiymətləndirir. Oxşar olaraq, onlar peşə təhsilinin keyfiyyəti barədə daha az narahatdırlar: 11 sorğu iştirakçısı bu göstəricini orta səviyyədə qiymətləndirir. Bununla belə, Aİ şirkətlərinin 45%-i bu il peşə təlimini qeyri-qənaətbəxş hesab edir. Sektorlar üzrə əlavə araşdırmalar göstərir ki, Maliyyə və Sığorta sektoru peşə təliminin keyfiyyətindən ən çox narazı olan sektordur. Belə ki, bu sahədə fəaliyyət göstərən 11 şirkətdən 8-i peşə təlimini qeyri-qənaətbəxş qiymətləndirir.

Müsahibələri və bağlı qrup müzakirələrini ümumiləşdirsək belə nəticəyə gəlmək olar ki, iqtisadiyyatın müasirləşdirilməsi və ölkəyə xarici investisiya axınının təşviq edilməsi üçün təhsil sistemi əmək bazarının tələblərinə daha çox uyğunlaşdırılmalıdır. Bu gözləntiləri və ehtiyacı nəzərə alaraq, hal-hazırda Avropa İttifaqı təhsillə bağlı layihələrə ümumilikdə 19 milyon avro sərmaye ayırıb. Aİ bir sıra təşəbbüsləri, o cümlədən ali təhsil standartlarının yenilənməsi və PTT üzrə tənzimləyici və siyasət çərçivəsinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən layihələri dəstəkləyir. Digər layihələr Milli Kvalifikasiyalar Çərçivəsinin səmərəli şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə PTT Agentliyinin və Təhsil Nazirliyinin institusional potensialının artırılması istiqamətində görülən işləri dəstəkləyir. Peşə təliminin təsirini və özəl sektora uyğunluğunu artırmaq məqsədilə belə proqramlar ölkənin bir sıra regionlarında (Gəncə, Cəlilabad, Bərdə, Qax, Qəbələ, İsmayıllı) da həyata keçirilir. Aİ şirkətləri düşünürlər ki, hazırkı layihələr düzgün istiqamətdə həyata keçirilir, lakin onların faydaları yalnız həmin layihələrin tam icrasından sonra aydın olacaq.

## İşçilərin ixtisas və məhsuldarlığı, eləcə də immiqrasiya siyasəti və Əmək Məcəlləsi qanunu ən yaxşı qiymətləndirilən göstəricilər arasındadırlar

Yuxarıda qeyd olunan nisbətən zəif nəticələrə baxmayaraq, Aİ şirkətlərinin bu ilki sorğuda ifadə etdikləri fikirlərə əsasən, əmək bazarındakı ümumi vəziyyət ən yaxşı aspekt olaraq qalır. 2018-ci ildəki sorğuda iqtisadi artım perspektivlərinin artması işçilərin məhsuldarlığının yaxşılaşması ilə nəticələnmişdi. Bu il nikbinlikdə cüzi azalma olsa da, işçilərin ixtisas və bacarıqları, eləcə də məhsuldarlığı əsasən adekvat və orta səviyyədən yüksək hesab edilir. Belə ki, birinci göstərici üzrə "qənaətbəxş" cavabların faizi (2018-ci ildəki 47%-dən aşağı düşərək) 38%, sonuncu göstərici üzrə isə (2018-ci ildəki 44%- dən aşağı düşərək) 32% olmuşdur. Dağ-mədən, Neft və Qaz şirkətləri (61%) və Nəqliyyat və Anbar təsərrüfatı sektorunu təmsil edən şirkətlər (50%) müvafiq olaraq işçilərinin ixtisas və bacarıqları və məhsuldarlığından daha çox razıdırlar.

Qənaətbəxş cavabların faiz nisbəti 2018-ci ildəki 37%-dən 2019-cu ildə 29%-ə düşsə də, əməyin dəyəri ümumilikdə bütün sektorlar üzrə və sorğu iştirakçılarının 59%-i tərəfindən hələ də orta səviyyədə qiymətləndirilir. Bu, həmçinin Əmək Məcəlləsi qanununa və immiqrasiya siyasətinin uyğunluğuna şamil edilir. Bu ilki məmnunluq səviyyəsində cüzi azalma olsa da, Əmək Məcəlləsi qanunu və immiqrasiya siyasəti Aİ şirkətləri tərəfindən müvafiq olaraq 49% və 52% olmaqla orta səviyyədə qiymətləndirilir. Bundan əlavə, aparılan çarpaz təhlillər göstərir ki, reytinqlərdəki cüzi geriləmə şirkətlərin məşğulluq və investisiya planlarına, eləcə də onların qısamüddətli perspektivlərinə təsir göstərmir.

**Şəkil 9.1** Əmək bazarındakı göstəricilərin qiymətləndirilməsi



2017-ci ildə ASAN e-Viza portalının istifadəyə verilməsi, eləcə də 2018-ci ildə Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinin dəyişilməsi nəticəsində immiqrasiya siyasətinin reytinqinin davamlı olaraq yaxşılaşması xüsusilə diqqətəlayiqdir. 2019-cu ildə də Aİ şirkətlərinin bu göstərici üzrə narazılığı azalan tendensiya nümayiş etdirir. Aİ şirkətlərinin immiqrasiya siyasəti ilə bağlı narahatlıqları əhəmiyyətli dərəcədə azalaraq 2016-cı ildəki 48%-dən bu il 18%-dək aşağı düşüb. Əslində, bu amil bu il müsbət irəliləyişin qeydə alındığı azsaylı göstəricilərdəndir. İş icazələrinin alınması prosedurlarının asanlaşdırılması və şirkətlərlə dəqiq məlumat mübadiləsinin təmin edilməsi məqsədilə elektron xidmətlərin optimallaşdırılması yüksək qiymətləndirilir.

2018-ci ilin iyul ayından etibarən, xarici vətəndaşlar üçün iş icazələrinin verilməsi ilə bağlı ərizələr sadələşdirilmiş ASAN Viza sistemi vasitəsilə həyata keçirilir. Yekun olaraq qeyd etmək olar ki, Dövlət Miqrasiya Xidməti tərəfindən bir sıra xidmətlər elektronlaşdırılıb, iş icazələri üçün qaynar xətt açılıb və özəl sektorla strukturlaşdırılmış dialoq yaradılıb.

*Yerli ixtisaslı kadrların və təcrübəli işçilərin çatışmazlığını nəzərə alaraq, hökumət ixtisaslaşmış peşəkarların və yüksək ixtisaslı xarici işçilərin immiqrasiyasına əngəl törədən amillərin (məsələn, sənədləşmə, bürokratiya) aradan qaldırılmasını nəzərdən keçirməlidir.*

***Müsahibələr zamanı aparılan müzakirələr***

# Aktiv biznes mühiti

Sorğunun nəticələrindən məlum olur ki, Azərbaycanda aktiv biznes mühitində mövcud olan önəmli boşluqlar hələ də qalmaqdadır. 2016-cı ildən etibarən, ödəmə intizamı, kapitala çıxış və tədqiqat və inkişaf üçün mövcud şərait əsas zəif cəhətlər olaraq müəyyənləşdirilmişdir. Bu nəticə 2019-cu ildə də öz təsdiqini tapır. Bütün aktiv biznes mühiti göstəricilərindən yalnız infrastruktur bu il orta səviyyədən biraz yüksək qiymətləndirilmişdir.

## Əlaqəliliyin qorunub saxlanılması və müasirləşdirilməsi əlavə səy tələb edir

Xarici investisiyaların ənənəvi olaraq dominant rol oynayan neft və qaz sənayesindən qeyri-neft sektoruna yönəldilməsi məqsədilə hökumət indiyədək yolların və dəmiryol şəbəkələrinin, dəniz limanlarının və elektrik enerjisi stansiyalarının bərpası və müasirləşdirilməsinə sərmayələr yatırıb. Sərmayələrin əksəriyyəti Azərbaycanı cəlbedici tranzit və ticarət mərkəzinə çevirmək məqsədilə ölkənin şimal-cənub və şərq-qərb nəqliyyat dəhlizləri boyu uzanan yol və dəmiryolu marşrutlarının genişləndirilməsinə ayrılıb. Bu məqsədlə, 2017-2020-ci illər ərzində təxminən $7 milyard (ÜDM-in 4,7%-i) investisiyanın qoyulması nəzərdə tutulub.[10]

İnfrastruktura gəldikdə isə Azərbaycan "Qlobal Rəqabətlilik Hesabatı"nda 2017-ci ildəki 51-ci yerdən 2018-ci ildə 46-cı yerə yüksələrək mövqeyini gücləndirib. Bununla belə, bu ilki sorğuda Aİ şirkətləri ölkənin infrastrukturunda nəzərəçarpan pisləşmə olduğunu qeyd edirlər. İnfrastrukturu qənaətbəxş qiymətləndirən sorğu iştirakçılarının sayı (2018-ci ildəki 37%-dən) bu il 25%-ə enib. Bununla belə, əksər şirkətlər (58%) infrastrukturu orta qiymətləndirir və yalnız 17% narazı olduqlarını bildirir. Neft qiymətlərinin yüksəlməsindən faydalanaraq ölkə bu il infrastrukturun, xüsusilə dəmiryol nəqliyyatı, turizm, rəqəmsallaşma və kənd təsərrüfatı infrastrukturunun yenilənməsi üzrə dövlət xərclərini artırmağı planlaşdırır. Kapital xərclərinin azaldıldığı iki illik müddətdən sonra bu tədbirlərin yeni iqtisadi impuls yaradacağı gözlənilir.

**Şəkil 10.** Aktiv biznes mühiti göstəricilərinin qiymətləndirilməsi




*Aİ Azərbaycanda və regionda nəqliyyat, yol və əlaqəlilik layihələrinin dəstəklənməsi istiqamətində daha böyük öhdəlik götürməlidir.*

***Nəqliyyat sektorundan Baş İcraçı Direktor***

Rəqəmsal dövrün nailiyyətləri misilsiz imkanlar yaradır və geniş rəqəmsal biznes modelləri və innovasiyalar ölkənin rəqabətədavamlılığını şərtləndirir. Bu il yeni texnologiyalardan istifadə imkanına dair məmnunluq ifadə edən şirkətlərin sayı yalnız 22% olub və 2018-ci illə müqayisədə bu, 11% geriləmə deməkdir. Bununla belə, İKT sektoruna qoyulan dövlət investisiyasının artması ümidvericidir. Növbəti illərdə maliyyə resursları əsasən rəqəmsal ödəniş sistemlərinə və genişzolaqlı internet şəbəkələrinin genişləndirilməsinə yönəldiləcək.[11] Tədqiqat və inkişaf üzrə yerli vəziyyətə gəldikdə isə bu il sorğu iştirakçılarının 40%-i bu göstəricidən narazıdır, Aİ şirkətlərinin daha böyük hissəsi (46%) isə bu amillə bağlı neytral mövqe tutur.

Beynəlxalq reytinqlərə əsasən demək olar ki, Azərbaycan innovasiya potensialını artırmaq üçün tədqiqat və inkişaf üzrə xərclərin (140 ölkə arasında 90-cı yerdə qərarlaşıb) artırılmasını, eləcə də tədqiqat müəssələrinin keyfiyyətinin yaxşılaşdırılmasını (86-cı yer) nəzərdən keçirməlidir.[12]

Sorğuda iştirak edən Aİ şirkətləri Azərbaycanda infrastrukturun daha da müasirləşdirilməsi və rəqəmsallaşdırılmasında, o cümlədən ümumi regional əlaqəlilik şəbəkəsinin inkişaf etdirilməsində Avropa İttifaqının dəstəyinə ehtiyac olduğunu bildirirlər. 2019-cu il fevral ayında Bakıda yüksək səviyyəli nümayəndələrin iştirakı ilə baş tutan yeni Aİ-Azərbaycan Nəqliyyat Dialoqu bu istiqamətdə atılan düzgün addım kimi qiymətləndirilir.

## Kapitala çıxış və ödəmə intizamı ilə bağlı yaranan çətinliklər yerli təchizatçıların rəqabətədavamlılığını zəiflədir

2016-cı ildən etibarən, kapitala çıxış və ödəmə intizamı bütün sektorlar üzrə zəif qiymətləndirilmişdir. Keçən il qısamüddətli müsbət dəyişiklikdən sonra Aİ şirkətlərinin 35%-i düşünür ki, ödəniş əməliyyatları bu il yenidən çətinləşib. Həmçinin, sorğuda iştirak edən şirkətlərin 38%-i kapitala çıxışın məhdud olduğunu hesab edir. Nəticələr həmçinin göstərir ki, ötən illə müqayisədə daha az olmaqla bərabər, kapitala çıxışla bağlı olan maneələr ödəmə intizamına mənfi təsir etməkdə davam edir. Daha dəqiq ifadə etsək, kapitala çıxış imkanlarına etimad göstərməyən şirkətlərin 56%-i eləcə də ödəmə intizamından narazıdır.

**Şəkil10.1** Aktiv biznes mühiti göstəricilərinin qiymətləndirilməsi




*Qanunu pozanlara qarşı tənzimləyici tədbirlər sərt olmalıdır ki, ödənişlər vaxtında icra olunsun. Daha önəmlisi isə odur ki, hökumət orqanları və dövlət şirkətləri bu baxımdan özəl sektora yaxşı nümunə olmalıdırlar.*

***Tullantıların idarə edilməsi və emalı sektorundan Baş İcraçı Direktor***

KOS sektorunun stimullaşdırılması rəqabətədavamlı yerli təchizat zəncirinin yaradılmasında həlledici rol oynayır. KOM-lar əksər hallarda iri beynəlxalq şirkətlərin təchizatçıları rolunda çıxış edir və beləliklə, ölkənin etimadını və xarici investorlar üçün cəlbediciliyini daha da artıra bilərlər. Bu il daha az sayda şirkət (13%) yerli təchizatçıların keyfiyyəti və mövcudluğundan razıdır (2018-ci ildə bu rəqəm 23% idi). Bununla belə, Aİ şirkətlərinin 54%-i yerli tərəfdaşlarını keyfiyyət baxımından orta səviyyədə qiymətləndirir, 16%-i isə yerli təchizatçılarla əməkdaşlıq etdiklərini bildirir. Aİ şirkətlərinin yerli təchizatçılara dair adətən qeyd etdikləri rəqabətcil üstünlük beynəlxalq şirkətlərlə müqayisədə onların təklif etdiyi qiymətlərin daha münasib olmasıdır.

Bu ilki sorğuda bu məsələni daha da dərindən təhlil etdikdə aydın olur ki, narazılığın əsas səbəbləri yerli təchizatçıların keyfiyyət standartlarına cavab verməməsi (17%), etibarlı məhsulların yerli istehsalının olmaması (16%) və yerli təchizatçıların müvafiq bacarıqlarının çatışmazlığıdır (15%). Bu məyusedici üç amil bu sualın ilk dəfə verildiyi 2018-ci ilin sorğu reytinqlərində də geniş yer almışdı. Maraqlıdır ki, Elektrik enerjisi, Qaz, Buxar və Kondisiyalaşdırılmış hava ilə təchizat xidmətləri sektorundan olan şirkətlər yerli təchizatçıların keyfiyyəti və mövcudluğuna dair fərqli fikirdədirlər. Belə ki, 8 şirkətdən 4-ü bu barədə öz narazılığını ifadə edir, 3 şirkət isə bu göstəricini orta səviyyədə qiymətləndirir.

# QEYRİ-MƏMNUNLUQ YARADAN İLK 5 AMİL

**17%** Yerli təchizatçıların keyfiyyət standartlarına cavab verməməsi

**16%** Etibar etdiyimiz məhsulların yerli istehsalının olmaması

**16%** Yerli təchizatçılarla əməkdaşlıq edirik

**15%** Yerli təchizatçıların müvafiq bacarıq və imkanlara malik olmaması

**12%** Yerli təchizatçıların qeyri-peşəkarlığı

# İqtisadi siyasət və institutlar

Ümumilikdə, iqtisadi siyasət üzrə reytinqlər 2018-ci ildə olduğu kimi, hələ də ürəkaçan səviyyədə deyil. Dövlət satınalmasının şəffaflığı, ictimai fondlara çıxış və gömrük tariflərinin qiymətləndirilməsi qeyri-qənaətbəxş olaraq qalır. Aİ şirkətlərinin vergi yükü və vergi siyasəti və orqanları barədə fikirlərinin bu il müsbət istiqamətdə dəyişməsi xüsusilə diqqətəlayiqdir. Siyasi və sosial sabitlik 2016-cı ildə bu sorğunun ilk nəşrindən etibarən reytinqdə tədricən irəliləmişdir və bu tendensiya 2019-cu ilin sorğusunda da müşahidə olunur. Bu göstərici həmçinin bu sahə üzrə orta səviyyədən yüksək qiymətləndirilən yeganə göstərici olaraq qalır.

## Vergi siyasəti və vergi yükü biznes mühiti göstəriciləri arasında ən çox irəliləyən amillərdir

Bədbinlikdə nəzərəçarpan azalma (2018-ci ildəki 37%-dən 2019-cu ildə 29%) demək olar ki, neytral reytinqlərdəki artıma bərabərdir. Bu il daha çox sorğu iştirakçısı (55%) vergi siyasətini və vergi orqanlarını orta səviyyədə qiymətləndirir. Eyni göstərici, daha geniş miqyasda, vergi yükünə də şamil edilir. Bədbinlik azaldıqca (18% azalma), fəaliyyət göstərdiyi sektor və ya ölçüsündən asılı olmayaraq, daha çox Aİ şirkəti (67%) bu il vergi yükünü orta səviyyədə qiymətləndirir. Həqiqətən, ümumilikdə 2018-ci il Aİ şirkətlərinin gözləntilərinə uyğun olaraq, vergi sahəsində həyata keçirilən islahatlar baxımından uğurlu il kimi yadda qaldı.

Vergi orqanları tərəfindən vergilərin azaldılması və vergi təşviqlərinin tətbiqi, eləcə də vergi ödəyiciləri və vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın artırılması istiqamətində görülən tədbirlər Azərbaycanda fəaliyyət göstərən Aİ şirkətlərinə yeni stimul verir. Vergi idarəçiliyinin təkmilləşdirildiyi ötən il ərzində vergi orqanlarının biznes icması və beynəlxalq qurumlarla məhsuldar qarşılıqlı əlaqəyə hazır olması xüsusilə təqdirəlayiqdir. Bununla belə, qeyd edilməlidir ki, hər iki göstərici hələ də qənaətbəxş səviyyədə deyildir. Bu isə onu göstərir ki, mövcud olan çətinliklərin aradan qaldırılması üçün qətiyyətli və davamlı əlavə tədbirlərin görülməsi zəruridir.

**Şəkil 11.** İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi




*Əsassız və lüzumsuz vergi yoxlamaları artıq aradan qaldırılmışdır. Vergi ödəyicilərinə qanunvericilik əsasında qərəzsiz münasibətin göstərilməsi şəffaflığın təmin edilməsi istiqamətində əldə olunmuş ən mühüm irəliləyişlərdəndir.*

***Müsahibələr zamanı aparılan müzakirələr***

## Siyasi və sosial sabitlik ən yaxşı qiymətləndirilən göstərici olaraq qalır

Aydındır ki, siyasi və sosial sabitlik birbaşa xarici investisiyaların ölkəyə axını üçün ən önəmli şərtlərdən biridir və bu ilin nəticələrinə əsasən, bu göstərici Aİ şirkətləri üçün etibarlı dayaq rolunu oynamağa davam edir. Bütün biznes mühiti göstəriciləri arasında siyasi və sosial sabitlik ardıcıl olaraq üçüncü ildir ki, ən yaxşı qiymətləndirilən göstərici olaraq qalır. Belə ki, şirkətlərin 48%-i ölkədəki sabitlikdən razıdır və 45%-i isə bu göstəricini orta səviyyədə qiymətləndirir. Aİ şirkətlərinin rəyləri onu göstərir ki, səmərəli dövlət idarəçiliyi xarici investisiyaları təmin edəcək islahatlar gündəliyinin həyata keçirilməsi və icrası baxımından eyni dərəcədə önəmlidir. Dövlət idarəçiliyini qənaətbəxş qiymətləndirən şirkətlərin sayı il ərzində 12% azalıb, lakin şirkətlərin əksəriyyəti (60%) bu göstəricini hələ də orta səviyyədə qiymətləndirir.

Bundan əlavə, sorğunun nəticələri Aİ şirkətlərinin siyasi sabitlik və iqtisadi siyasətin proqnozlaşdırılması ilə bağlı fikirləri arasında sıx əlaqənin olduğunu vurğulayır. Başqa sözlə desək, Avropa şirkətlərinin nöqteyi-nəzərinə əsasən, ölkə siyasi cəhətdən nə qədər sabit olarsa, iqtisadi siyasət planlarını bir o qədər yaxşı proqnozlaşdırmaq mümkündür.

Bu il sorğuda iştirak edən şirkətlərin 57%-i bildirir ki, iqtisadi siyasətin müəyyən dərəcədə proqnozlaşdırılması mümkündür, lakin sorğu iştirakçılarının yalnız 9%-i (2018-ci ildə bu rəqəm 21% idi) bu göstəricini qənaətbəxş hesab edir. Deməli, bu il Aİ şirkətlərinin fikirləri daha müsbət görünsə də, gələcəklə bağlı suallar qalmaqdadır. Bu baxımdan, ən çox narahatlıq ifadə edən sektor Maliyyə və Sığorta sahəsidir. Belə ki, bu sektoru təmsil edən 11 şirkətdən 6-sı iqtisadi siyasətin proqnozlaşdırılma səviyyəsindən narazıdır.

Müsahibələr və bağlı qrup müzakirələrində iqtisadi siyasətin proqnozlaşdırılması ilə bağlı narahatlıqların bəzi islahat tədbirlərində müəyyənliyin və davamlılığın olmaması ilə sıx əlaqəli olduğu qeyd olunmuşdur. Aİ şirkətlərinin nöqteyi-nəzərinə əsasən, islahatlar əksər hallarda qısa müddəti əhatə edir və onların uzunmüddətli faydaları hələ ki qeyri-müəyyəndir. Beləliklə, hökumət islahatlar gündəliyini gücləndirməyə davam etməli, icra mexanizmlərini möhkəmləndirməli və şirkətlərin və investorların etimadını artırmaq üçün əlavə uzunmüddətli tədbirlər həyata keçirməlidir.

Şəkil 11.1 İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi




*Hökumətin sistemin optimallaşdırılması və idarəetmənin yaxşılaşdırılması istiqamətində göstərdiyi səylər müsbət qarşılanır. Məsələn, öhdəlikləri digər qurumların vəzifələri ilə üst-üstə düşən agentliklərin ləğv edilməsi düzgün qərardır. Bununla belə, bu qərarların verilməsi uzunmüddətli planlaşdırmanı və daha rahat keçid proseslərini zəruri edir. Əks təqdirdə, kəskin dəyişikliklər prosesin təsir etdiyi qurumların diqqətini və prioritetlərini başqa istiqamətə yönəldir və nəticədə Aİ şirkətlərinin etimadını zədələyir.*

***Müsahibələr və bağlı qrup müzakirələri***

## Azərbaycan tarif siyasətinə yenidən baxışı nəzərdən keçirməlidir

Bu ilki sorğuda tarif siyasətinin yenidən nəzərdən keçirilməsinə dair çağırışlar çoxalıb. Sorğuda iştirak edən Aİ şirkətlərinin əksəriyyəti (46%) cari gömrük rüsumlarından narazıdır və ticarət və ixracın təhrif edilməməsi üçün ticarət tariflərinin hərtərəfli şəkildə təhlil edilməsinə ehtiyacın olduğunu bildirir. Müsahibələr zamanı aparılan müzakirələr təsdiq edir ki, Aİ-dən idxal olunan və ölkədə mövcud olmayan xammal və məhsullara yüksək gömrük rüsumlarının tətbiqi yerli istehsalatı məhdudlaşdıra və ixrac yönümlü tədbirlərin faydalarını tədricən azalda bilər. Bu rəylər həm də Azərbaycanın ticarət tarifləri baxımından 140 ölkə arasında 90-cı yerdə qərarlaşdığı 2018-ci il üzrə "Qlobal Rəqabətlilik Hesabatı"nın nəticəsi ilə uyğunluq təşkil edir.

Məlumatları daha dərindən təhlil etdikdə məlum olur ki, bu il yüksək gömrük rüsumları ölçüsündən asılı olmayaraq bütün şirkətlərə mənfi təsir göstərib. Həllini gözləyən daha təcili məsələlər fonunda Aİ şirkətləri Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlük prosesinin başa çatdırılmasını prioritet islahat hesab etməsələr də (yalnız 3% bunu prioritet kimi dəyərləndirir), ölkənin təşkilata hələ də üzv olmaması Aİ şirkətlərində təəccüb doğurur və bu məsələ dayanıqlı, innovasiyaya əsaslanan iqtisadiyyat yolunda bir maneə  kimi göstərilir.

Aradan qaldırılmalı problemləri sadalamaqla yanaşı, Aİ şirkətləri eləcə də hökumətin müəyyən islahatların aparılmasında əldə etdiyi uğurları vurğulayırlar. Ötən il Aİ şirkətləri gömrük prosedurları ilə bağlı nisbətən mənfi fikirdə idilər, lakin qısa müddətdən sonra bu il gömrük rəsmiləşdirmə prosedurları sorğu iştirakçılarının 49%-i tərəfindən orta səviyyədə qiymətləndirilir (2018-ci ildə bu rəqəm 31% idi). Bununla belə, şirkətlərin 38%-i narazı olduqlarını və rəsmiləşdirmə prosedurlarının optimallaşdırılması üçün əlavə tədbirlərin zəruri olduğunu qeyd edir. Rəylərə əsasən, gömrük inzibatçılığı çoxlu sayda sənədin (mənşə sertifikatı, fitosanitariya, sanitariya nəzarəti və laboratoriya testləri) və külli miqdarda məlumatın təqdim edilməsini tələb edir. Lakin bunlar rəsmiləşdirmə prosesi üçün xüsusi əhəmiyyət kəsb etmir və sərhəddə yubanmalara səbəb olur. Əslində, bu fikirlər "Doing Business 2019" hesabatında Azərbaycanın region üzrə ortalama göstəricidən aşağıda, 84-cü pillədə qərarlaşması ilə üst-üstə düşür. Qeyd etmək lazımdır ki, Aİ ölkələrində 67% hallarda gömrük rəsmiləşdirməsi 5 dəqiqədən az və yalnız 7% hallarda 1 saatdan çox vaxt tələb edir.[13] Buna gömrük prosedurlarının (sertifikatlaşma prosesi də daxil olmaqla) avtomatlaşdırılması və risklərin idarə edilməsi üzrə tədbirlərin dayanıqlılığı və daha da inkişaf etdirilməsi vasitəsilə nail olmaq mümkündür.

**Şəkil 11.2** İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi

*MDB ölkələrindən idxal edilən mallara heç bir rüsum tətbiq olunmadığı halda, Avropadan idxal olunan mallara ən yüksək tarif planı tətbiq olunur. MDB ölkələri dünya standartlarına cavab verən keyfiyyət təmin edə bilmir. Avropa bu keyfiyyəti təmin edir, lakin gömrük prosedurları bizə bu üstünlükdən yararlanmağa imkan vermir.*

***Topdan və pərakəndə ticarət sektorundan Müdir***




## Ədalətli oyun prinsipi: şəffaflığın artırılması və sağlam normativ-hüquqi bazanın yaradılması

Hüquqi dəqiqlik, eləcə də dövlət satınalmalarının şəffaflığı və ictimai fondlara çıxış bu ilki sorğuda biznes fəaliyyətinin asanlığı ilə bağlı daha çox narahatlıq doğuran amillərdir. Sorğu iştirakçıları bu sahələr üzrə gerilәmənin olduğunu bildirirlər. İctimai fondlara çıxış biznes mühiti göstəriciləri arasında reytinqdə ən aşağı qiymətləndirilən göstəricidir; belə ki, Aİ şirkətlərinin 48%-i bu göstəricidən narazı olduqlarını bildirir.

*Məhkəmə sistemində ədalətsizliyin, xüsusilə nəzərəçarpan qərəzin səciyyəvi olmasına dair fikirlər xarici investorları ölkəyə sərmayə qoymaqdan çəkindirir və mövcud şirkətlərin ölkəni tərk etməsinə səbəb olur.*

***Peşəkar fəaliyyətlər sektorundan İdarəedici Partnyor***

Ardıcıl olaraq dördüncü ildir ki, Aİ şirkətlərinin əksəriyyəti iqtisadi mübahisələrin məhkəmə yolu ilə həllindən çəkindiklərini bildirirlər. Bu, məhkəmələrdə qərəzli və uzunmüddətli prosedurların olması, eləcə də məhkəmə qərarlarının icrasının əlavə çətinliklər törətdiyi ilə bağlı fikirlərdən qaynaqlanır. Məmnunluq səviyyəsinin aşağı olması (12% - müqayisə üçün qeyd edək ki, 2018-ci ildə bu rəqəm 21% idi) fonunda, sorğu iştirakçılarının 41%-i bu il hüquqi dəqiqlikdən narazı olduqlarını ifadə edir. Bundan aydın olur ki, məhkəmə sistemi ölkəyə xarici investisiya qoyuluşuna əsas əngəldir. Bu səbəbdən, Prezident tərəfindən yenicə imzalanan "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman vaxtında atılmış addımdır və növbəti ildə sorğu cavablarına təsir edə bilər. Hüquqi dəqiqlikdən xüsusilə narazı olan sahələr Maliyyə və Sığorta (11 sorğu iştirakçısından 8-i) və Peşəkar, Elmi və Texniki fəaliyyətlərlər (18-dən 10-u) sektorlarıdır.

Oxşar olaraq, Aİ şirkətlərinin 42%-i korrupsiya ilə mübarizə tədbirlərinin yetərli olmadığını düşünür, 44%-i isə neytral mövqe tutur. Ötən ilki sorğu ilə müqayisədə cüzi irəliləyiş olsa da, daha az sayda Aİ şirkəti korrupsiya ilə mübarizə tədbirlərinin qənaətbəxş olduğunu bildirir. Müsahibələr göstərir ki, korrupsiya (və "əlaqələr") dövlət satınalmalarının şəffaflığına əngəl törədən əsas amildir. Əslində, çarpaz təhlillər göstərir ki, korrupsiya ilə mübarizə tədbirlərinin qeyri-qənaətbəxş olduğunu bildirən şirkətlərin 69%-i həmçinin dövlət satınalmalarının qeyri-şəffaf olduğunu düşünür. Vurğulanan digər problemlər tenderdə iştirak meyarları və prosedurlarına dair mövcud məlumatların azlığı (tələblər əksər hallarda anlaşılmaz şəkildə təqdim olunur) və qiymətləndirmə və seçim proseslərinin ümumi anlaşılmazlığıdır.

Son illərdə satınalma prosedurlarında daha çox şirkətin iştirakı nəticəsində rəqabət cüzi dərəcədə yaxşılaşsa da, şəffaflığın olmaması bütün şirkətlər üçün ciddi çətinlik törədir.

Şəffaflığın təmin edilməsi istiqamətində atılan ilk addım bu il bütün dövlət agentlikləri üçün dövlət satınalmaları ilə bağlı prosedurların tam avtomatlaşdırıldığı vahid onlayn platforma rolunu oynayan veb səhifənin (etender.gov.az) yaradılması oldu. Bu ilki sorğunun nəticələrinə əsasən, bu platformanın səmərəliyini isə zaman göstərəcək.

*Son illərdəki cüzi irəliləyişlərə baxmayaraq, satınalma prosedurları hələ də tam şəffaf deyil. Avropa şirkəti olaraq, etik normalara riayət etməyə çalışarkən ciddi çətinliklərlə (xüsusi hazırlanmış meyarlar, məlumat çatışmazlığı, kommunikasiyada yubanma və korrupsiya da daxil olmaqla) üzləşirik.*

**Su təchizatı və tullantıların idarə edilməsi sektorundan Müdir**

Şəkil 11.3 İqtisadi siyasət göstəricilərinin qiymətləndirilməsi




Aİ sahibkarlarının biznes göstəriciləri ilə bağlı fikirləri 2019-cu ildə şirkətlərinə mənfi təsir göstərən əlverişsiz şərtlərin reytinqində də qismən öz əksini tapır. 2018-ci ildə əsas təhlükə hesab edilən bazarın qeyri-müəyyən istiqamətdə inkişafı bu ilki sorğuda daha az sayda Aİ şirkəti tərəfindən qeyd olunsa da, yenə də ilk sırada qərarlaşır. Əlverişsiz şərtlər yaradan digər 5 önəmli amilə bürokratiya (2017-ci ildən etibarən ciddi təhlükə hesab olunur), korrupsiya (əvvəlki qeyd bu amilə də aiddir), ixtisaslı kadr çatışmazlığı və inflyasiya aiddir. Maraqlıdır ki, korrupsiya ilk sorğunun aparıldığı 2016-cı ildən etibarən, ilk dəfə bu il ən əsas üç təhlükə sırasında yer alır. Bürokratiyaya və ixtisaslı kadrların çatışmazlığına dair qayğıların artması ölkədə Aİ şirkətlərinin genişlənməsinə heç də az təsir göstərmir.

Bundan əlavə, reytinq göstərir ki, Aİ şirkətləri davam edən gömrük və vergi islahatlarını müsbət qiymətləndirsələr də, gömrük nəzarəti və vergi qaydaları barədə hələ də narahatlıq ifadə edirlər. Ötən il olduğu kimi, sabitləşən valyuta məzənnəsişirkətlərin inflyasiya və xarici valyutaya çıxışla bağlı narahatlıqlarını qismən azaldıb. Eyni zamanda, şirkətlərin infrastruktur məsələləri ilə bağlı narahatlıqları da azalıb.

**Şəkil 12.** Aİ şirkətlərinə təsir edən iqtisadi faktorların qiymətləndirilməsi, 2017-2019



# FƏSİL 4

## Azərbaycan investisiya məkanı kimi



Iqtisadiyyatın şaxələndirilməsi məqsədilə Azərbaycan fəal şəkildə uzunmüddətli birbaşa xarici investisiyaların geniş miqyaslı infrastruktur layihələrinə cəlb edilməsinə çalışır. Bu baxımdan Aİ və Dünya Bankı tərəfindən hazırlanmış Trans-Avropa Nəqliyyat Şəbəkəsinin (TEN-T) İnvestisiya Fəaliyyət Planını qeyd etmək olar. Demək olar ki, 13 milyard avro dəyərində qiymətləndirilən investisiya planına yeni və mövcud yolların, dəmir yollarının, dəniz və hava limanlarının, eləcə də loqistika mərkəzlərinin və sərhəd keçid məntəqələrinin tikintisi və bərpası layihələri daxildir. Layihə nəqliyyat sektoru ilə bağlı əsas islahatların irəli sürülməsi və regional yol təhlükəsizliyinin yaxşılaşdırılması məqsədini daşıyır. Layihə çərçivəsində Azərbaycanda 5 loqistika mərkəzinin (€369 milyon) və Ələtdə Azad Ticarət Zonasının (€410 milyon) yaradılması, o cümlədən Şərq-Qərb dəmir yolu xəttinin müasirləşdirilməsi (€328 milyon) planlaşdırılır. Qeyd edilən ilk iki layihə dövlət-özəl sektoru tərəfdaşlığı əsasında, sonuncu isə beynəlxalq maliyyə təşkilatları tərəfindən maliyyələşdiriləcək.

Hökumət həmçinin hazırda nisbətən zəif məhsuldarlığa malik olan dövlət agentlikləri tərəfindən idarə edilən bərpa olunan enerji və su təchizatı layihələrinə, o cümlədən elektrik enerjisinin istehsalı və paylanılması sahəsinə özəl sektorun cəlb edilməsi imkanlarını araşdırır. İnfrastrukturun müasirləşdirilməsi və kənd təsərrüfatı və turizm sektorlarının ikişafı üzrə konsepsiyanın hazırlanması ilə yanaşı, özəl sektorun daha fəal iştirakını təşviq etmək məqsədilə bir sıra təşəbbüslər, o cümlədən xüsusi iqtisadi zonaların və sənaye parklarının yaradılması irəli sürülmüşdür. Azərbaycanda sənaye parklarının yaradılmasına indiyədək $2,6 milyard sərmayə qoyulmuşdur və növbəti mərhələdə əlavə $1,1 investisiya qoyuluşu planlaşdırılır.[14]

Bununla belə, statistik məlumatlar göstərir ki, bu təşviqlər uzunmüddətli xarici investisiyaların cəlb edilməsinə (hələ ki) o qədər də böyük təsir göstərməyib. Azərbaycan Respublikasının Mərkəzi Bankının verdiyi məlumata əsasən, 2018-ci ildə Azərbaycan iqtisadiyyatına $4,1 milyard məbləğ dəyərində birbaşa xarici investisiya qoyulmuşdur, bu isə ötən ilki göstəricidən 28,1% aşağıdır. 2018-ci ilin tədiyyə balansına əsasən, birbaşa xarici investisiyaların 76,5%-i neft-qaz sektoruna yatırılmışdır. 2017-ci il ilə müqayisədə, qeyri-neft sektoruna cəlb olunan birbaşa xarici investisiyaların məbləği 18,9% artaraq 2018-ci ildə $967,1 milyon təşkil etmişdir. Son beş il ərzində Aİ ölkələri Azərbaycan iqtisadiyyatına $15 milyarddan artıq investisiya yatırıb.[15] Bundan əlavə, Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşı və ən böyük ixrac-idxal bazarı olaraq qalır. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə əsasən, 2018-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin 41,7%-i Aİ ölkələrinin payına düşüb.*

* *İnvestisiyalar və Aİ ilə Azərbaycan arasındaki ticarət statistikası haqqında daha ətraflı məlumat üçün Əlavə C-yə baxın.*

# Azərbaycana yenidən investisiya qoyardınızmı?

İnvestisiya planlarına gəldikdə, Azərbaycana sadiq olan Aİ şirkətlərinin nisbəti 2016-cı ildəki 40%-dən 2018-ci ildə 66%-ə yüksəlib. Bu il Azərbaycana yenidən investisiya qoymaqla bağlı suala cavab olaraq, daha çox Aİ şirkəti ölkədə hələ də istifadə olunmayan investisiya imkanlarının olduğunu bildirirlər. Sorğuda iştirak edən şirkətlərin 75%-i 2019-cu ildə Azərbaycanı investisiya məkanı olaraq seçməkdə əminliyini ifadə edir və şirkətlərin yalnız 7%-i isə investisiya planlarını yenidən nəzərdən keçirməyə meyillidir. Bu il investisiya planlarının müsbət inkişaf dinamikasının əsas səbəbi Tikinti sektorudur. Belə ki, sorğuda iştirak edən 9 şirkətin hər biri Azərbaycana yenidən investisiya qoymaqda qətiyyətli olduqlarını bildirir. Bu, 2018-ci il ilə müqayisədə ən yüksək irəliləyişi nümayiş etdirir; belə ki, ötən il bu sektorda fəaliyyət göstərən 10 şirkətdən yalnız 4-ü ölkəyə sadiq olduğunu bildirmişdir. Sektorlar arasında təhlil apardıqda, ötən il ilə müqayisədə Neft və Qaz şirkətlərinin (18 şirkətdən 14-ü) investisiyaya dair qərarlarının bu il (18 şirkətdən 17-i) daha qətiyyətli olduğu aşkarlanır. Bu, əslində, Azərbaycanın neft-qaz sektorunda tarixən mövcud olan əlverişli investisiya mühitini əks etdirir.

**Şəkil 13.** Azərbaycanı yenidən investisiya məkanı olaraq seçərdinizmi?




**Şəkil 14.** Şirkətinizin Azərbaycanda hansı istiqamətdə inkişaf edəcəyini düşünürsünüz?




Bunun əksinə olaraq, Maliyyə və Sığorta sektorunu təmsil edən şirkətlər nisbətən ehtiyatlıdırlar. Belə ki, maliyyə və sığorta xidmətləri təmin edən 11 şirkətdən 5-i "Azərbaycanı yenidən investisiya məkanı olaraq seçərdinizmi" sualını müsbət cavablandırmır. Bununla belə, mənfi cavablar heç də şirkətlərin ölkəni tərk etməyi planlaşdırdıqlarını ifadə etmir və bu, sadəcə bu sektorda fəaliyyət göstərən şirkətlərin hazırkı şərtlərdə digər bir ölkəyə investisiya qoymağa üstünlük verdiklərini bildirir. Növbəti bir-iki il ərzində üçüncü bir ölkəyə köçməyi planlaşdırdığını bildirən 6 şirkət alternativ kimi Gürcüstan, Özbəkistan, Rusiya və Maltanı qeyd edir. Dəyişən bazar şərtləri və tələbləri şirkətlərin planlarını dəyişdirə bilər, lakin sözsüz ki, yerli biznes mühiti bu baxımdan eyni dərəcədə əhəmiyyətli rol oynayır. Bu o deməkdir ki, Azərbaycan rəqiblərindən daha üstün olmaq və eləcə də, iqtisadiyyatın uzunmüddətli dayanaqlılığını təmin etmək üçün səmərəliliyi və rəqabətədavamlılığı artırmalıdır.

Ötən ildə olduğu kimi, sorğuda iştirak edən şirkətlərin inkişaf dinamikası onların ölkəyə investisiya yatırmaq niyyəti ilə birlikdə artıb. Baxmayaraq ki, bu artım bu il müəyyən dərəcədə orta səviyyədədir. Aİ şirkətlərinin 44%-i növbəti bir-iki il ərzində biznes fəaliyyətlərini genişləndirməyi planlaşdırdığını bildirir. Bu isə ötən il ilə müqayisədə, 9% azalma deməkdir. Digər tərəfdən, şirkətlərin 9%-i bu il istehsalın ölkədə aparılacağını (lokalizasiya) nəzərdə tutur. Şirkətləri sərmayə qoymağa təşviq edən amillərə gəldikdə isə daxili bazarlara çıxış (27%), strateji tərəfdaşlıq və müttəfiqlik imkanları (24%) sorğuda iştirak edən şirkətlər üçün ən mühüm hərəkətverici qüvvələrdir. İnvestisiya təşviqləri (məsələn, vergi təşviqləri), aşağı istehsal xərcləri və texnologiya və ya bilikdən istifadə imkanları kimi digər göstəricilər o qədər də önəmli üstünlük hesab edilmir.

# İNVESTİSİYA QOYULUŞUNU TƏŞVİQ EDƏN 5 ƏSAS AMİL



**27%**
Daxili bazarlara çıxış

**24%**
Strateji tərəfdaşlıq/ müttəfiqlik

**9%**
İnvestisiyanın təşviqi

**9%**
Aşağı istehsal xərcləri

**8%**
Texnologiya və ya bilikdən istifadə imkanları

Gələcəyə baxdıqda görünür ki, dayanıqlı və uzunmüddətli iqtisadi inkişaf özəl sektorun sərmayə qoyuluşunda payının artmasından daha çox asılı olacaq. Azərbaycan islahatların aparılmasında maraqlı olduğunu nümayiş etdirir və bunu Aİ şirkətlərinin fikirləri də təsdiq edir. Bununla belə, ölkə qurumların səmərəli idarə olunmasını təmin etmək məqsədilə onların restruktruzasiyasında və müasir idarəetmə prinsiplərinin tətbiqində müəyyən çətinliklərlə üzləşir. Hal-hazırda institusional çərçivələrin yaradıldığı və bir sıra islahat təşəbbüslərinin həyata keçirildiyi bir vaxtda hökumət bir sıra istiqamətlərdə, xüsusilə bank və maliyyə, ədliyyə və təhsil sahələrində mühüm islahatların həyata keçirilməsində qətiyyətli olmalıdır. Daha dinamik biznes və investisiya mühitinə aparan yolda uğurun əldə olunması biznes icması ilə sıx əməkdaşlıqdan asılıdır. Bu səbəbdən, ölkəyə xarici şirkətlərin və investorların cəlb edilməsi məqsədilə biznes icması ilə yaxından əməkdaşlıq edərək praktiki və uzunmüddətli həllər hazırlanmalıdır.

*Əlverişli kredit şərtlərinin olmaması, eləcə də qeyri-şəffaf ədliyyə sistemi ölkənin investisiya məkanı kimi cəlbediciliyini azaldır.*

***Müsahibələr və bağlı qrup müzakirələri***

*Azərbaycan regionda güclü rəqabət üstünlüyü əldə etmək və beynəlxalq şirkətləri ölkəyə uzunmüddətli sərmayə yatırmağa inandırmaq məqsədilə sektorlar və xarici investisiyalar üzrə gələcəyə dair uzunmüddətli baxışını aydın şəkildə formalaşdırmalıdır.*

***Müsahibələr və bağlı qrup müzakirələri***

# Gələcəyə baxış və təkliflər

Nəticələri ötən il ilə müqayisə etdikdə tam aydın mənzərə formalaşmır. Aİ şirkətləri biznes mühitini orta səviyyədə qiymətləndirirlər; islahat tədbirləri yüksək dəyərləndirilir, lakin onların həyata keçirilməsi ilə bağlı gözləntilər hələ özünü tam şəkildə doğrultmayıb. Vergi və gömrük üzrə islahat gündəliyi nikbinliyi artırsa da, Aİ şirkətləri belə hesab edirlər ki, şirkətlərin həyata keçirilən təşəbbüslərdən tam yararlanması üçün əlavə dəstəkverici tədbirlərə ehtiyac var. İstifadəsi asan olan həllərin təmin edilməsi və prosedurların daha da sadələşdirilməsi bu baxımdan faydalı ola bilər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin yeni rəhbərliyi tərəfindən həyata keçirilən islahatların təsiri ilə bağlı cavablar demək olar ki, yekdilliklə müsbətdir. Buna baxmayaraq, əhəmiyyətli islahatlar davam etdirilməsə, bu nikbinlik asanlıqla yox ola bilər. İslahat gündəliyi üçün olduqca önəmli olan yeni yaradılan qurumlara (məsələn, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Qida Təhlükəsizliyi Agentliyi, İpoteka və Kredit Zəmanət Fondu) gəldikdə isə onların institusional təşkilatlanmalarına ayrılan güzəşt vaxtı artıq tamamlanıb və Aİ şirkətləri bu qurumlardan daha konkret nəticələr tələb edirlər. Cavablar aydın şəkildə göstərir ki, Aİ şirkətləri islahatlara dair ilkin impulsun davam etdirilməsi məqsədilə əlavə tədbirlərin vaxtlı-vaxtında və səmərəli şəkildə həyata keçirilməsini gözləyirlər.

Təhsil sistemi və PTT üzrə müsbət fikirlərin bu il azalması "həyacan siqnalı" rolunu oynamalıdır. İxtisaslı kadr çatışmazlığı islahatın aparılmalı olduğu prioritet sahə kimi bu il yenidən və daha qabarıq şəkildə qeyd edilir. Təhsil sistemi hüquq sistemi və maliyyə sektoru ilə yanaşı, islahatların aparılmalı olduğu ən mühüm beş istiqamətdən biridir. Prezidentin imzaladığı yeni fərmanın ölkədə qanunun aliliyi ilə bağlı olan məsələlər üzrə gələcəyə dair yeni baxış formalaşdıracağını nəzərə alaraq, hüquq sistemindəki çətinliklər və həllər növbəti ilki sorğuda daha ətraflı tətqiq edilməlidir. Bu istiqamətdə irəlilədikcə, hökumət islahat gündəliyindən faydalanmalı, onların icrasını gücləndirməli və şirkətlərin və investorların etimadını artırmaq üçün uzunmüddətli əlavə tədbirlər görməlidir.

**1. Şirkətlərin yeni iqtisadi reallıqlara səmərəli və rahat uyğunlaşmasını təmin etmək üçün davam etdirilən vergi və gömrük islahatları dəqiq məlumat təminatı və fəaliyyətlərin davamlı koordinasiyası vasitəsilə dəstəklənməlidir.** Bundan əlavə, Aİ şirkətləri ikiqat vergitutma və artıq vergilərin geri ödənilməsinin həyata keçirilməsində mövcud olan əngəllərin aradan qaldırılması üçün islahatların artırılmasına ehtiyacın olduğunu bildirirlər. Oxşar olaraq, gömrük rəsmiləşdirmə proseslərini daha da yaxşılaşdırmaq və sərhəddə süni yubanmaların qarşısını almaq üçün əlavə tədbirlər tələb olunur. Bu məqsədlə, gömrük orqanları şirkətlərlə birgə əməkdaşlıq edərək Yaşıl Dəhliz sisteminin səmərəliliyini təmin etməli, eləcə də saxta malların idxalının qarşısını almalıdır.

**2. Aydındır ki, təhsil və peşə təlimi sektorunda islahatlar birdən-birə baş vermir.** Aİ şirkətləri vurğulayır ki, Peşə Təhsili üzrə Dövlət Agentliyi sistemin müasirləşdirilməsi istiqamətində səylərini (məsələn, daha praktiki və müasir metodologiyaların tətbiqi, yeni praktiki bilik, rəqəmsallaşma) davam etdirməlidir. Onlar son dəyişikliklərin nəticələri barədə məlumatlılığın artırılması üçün iştiraka əsaslanan platformanın yaradılmasını, eləcə də PTT üzrə yol xəritəsinin uğurlu icrası üçün sosial və dövlət-özəl tərəfdaşlığının təşviq edilməsini dəstəkləyirlər.

**3. Belə hesab edilir ki, maliyyə sektorunda liberallaşma və çeviklik çatışmır və bu, innovasiya və yeni maliyyə alətlərinin tədbiqinə ciddi əngəl törədir.** Şirkətlər bildirirlər ki, Aİ təcrübəsi və praktikası bürokratiyanın aradan qaldırılması və ölkənin maliyyə sektoru üzrə dayanıqlı strategiyanın və uzunmüddətli gələcəyə baxışın formalaşdırılması baxımından önəmlidir. Yerli valyuta məzənnəsinin sabitləşməsindən sonra 2019-cu ildə həyata keçirilməsi gözlənilən islahatlar bank sektorunda dayanıqlılığın və şəffaflığın artırılmasını (şəffaflıq və etimada malik olmayan banklar hələ də fəaliyyət göstərir) və maliyyəyə çıxışı məhdudlaşdıran əngəllərin aradan qaldırılmasını (məsələn, yüksək faiz dərəcələri, ödəmə müddətinin qısa olması, maliyyə sektoruna qeyri-sistematik nəzarət) dəstəkləməlidir. Şirkətlərin son vergi və gömrük islahatlarından tam faydalanmaları üçün bu tədbirlər mühüm əhəmiyyətə malikdir.

**4. Aİ şirkətləri yeni yaradılan qurumların güclənməsini və nəzərəçarpan nəticələrin əldə edilməsində daha fəal rol oynamalarını gözləyir.** Qurumlar biznes icmasını uzunmüddətli strategiyaları barədə məlumatlandırmaqla və dövlət-özəl sektoru arasındakı dialoq platformasını daha da gücləndirməklə sahibkarlar arasında məlumatlılıq səviyyəsinin artırılmasını və islahat tədbirlərinin müvafiqliyinin təmin edilməsini nəzərdən keçirməlidirlər.

**5. Bütün bunları nəzərə alaraq, bu il Aİ şirkətlərinin əksəriyyətinin rəyinə əsasən, biznes fəaliyyəti ilə məşğul olmaq üçün mövcud olan əsas təhlükə bazarın qeyri-müəyyən istiqamətdə inkişafıdır.** Bu səbəbdən, bu il sorğuda və müsahibələrdə iştirak edən şirkətlər uzunmüddətli gələcəyə baxışın formalaşdırılmasına, eləcə də planların və strategiyaların səmərəli nəticələr verən konkret fəaliyyətlər şəklində həyata keçirilməsinə ehtiyacın olduğunu bildirirlər.

Unutmamalıyıq ki, Aİ şirkətləri iqtisadiyyatın şaxələndirilməsi gündəliyi barədə hələ də müsbət fikirdədirlər. Bu istiqamətdə görülən tədbirlər yüksək qiymətləndirilir, lakin əlavə addımların atılmasına ehtiyac var. Ölkə iqtisadiyyatı əhəmiyyətli dərəcədə sabitləşsə də, islahatların tempini qoruyub saxlamaq önəmlidir. İslahat tədbirlərinin yubadılması, yaxud qeyri-səmərəli şəkildə icrası müsbət nəticələrin əldə edilməsinə dair imkanları məhdudlaşdıra bilər.

# ƏLAVƏ A: Metodologiya

Ardıcıl olaraq dördüncü ildir ki, Azərbaycanın Aİ Biznes Mühiti Sorğusu Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyinin dəstəyi ilə Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) tərəfindən həyata keçirilmişdir. Sorğunun nəticələri əsasında hazırlanan 2019-cu il üzrə Azərbaycanın Aİ Biznes Mühiti Hesabatı Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olan Aİ şirkətlərinin ölkədəki ümumi iqtisadi vəziyyət, biznes və investisiya mühiti ilə bağlı fikirlərini təqdim edir.

Sorğu 3 bölməni əhatə edən 20 sualdan ibarətdir:

1. Azərbaycanda iqtisadi vəziyyət və perspektivlər
2. Azərbaycanda iqtisadi vəziyyətin və biznes mühitinin şirkətlərə və onların investisiya qərarlarına təsiri
3. Şirkət haqqında suallar

İslahat yenilikləri ilə bağlı bəzi suallara kiçik dəyişikliklər edilsə də, sorğunun ümumi formatı və sualların sayı dəyişməz olaraq qalmışdır. Bu il, əldə olunan cavablardan daha dəqiq nəticənin çıxarılmasını təmin etmək və hökumət tərəfindən biznes nümayəndələrinə geniş məlumatın ötürülməsini və ünsiyyətin artırılmasını tələb edən sahələri aşkar etmək məqsədilə islahatların effektivliyini qiymətləndirən suala yeni bir cavab variantı ("yaxşı məlumatlı deyiləm") əlavə edilmişdir.

Sorğu "QuestionPro" onlayn sorğu platforması vasitəsilə 23 Aİ ölkəsini təmsil edən təxminən 400 Aİ şirkəti arasında keçirilmişdir. 15 yanvar-22 fevral 2019-cu il tarixləri ərzində cəmi 221 cavab əldə olunmuşdur. Məlumatların yoxlanılmasından sonra qismən doldurulan cavablar silinmiş və eyni şəxslərdən / şirkətlərdən alınan cavablar çıxarılmışdır. Nəticə etibarilə, təsviri və statistik baxımdan əhəmiyyətli 130 etibarlı və tam cavab seçilmişdir, bu isə 33% cavab səviyyəsini ifadə edir. Sorğunun nəticələri təhlil və təqdim olunarkən cavabların tam məxfiliyi və anonimliyi təmin edilmişdir.

Bundan əlavə, bu il 10 müxtəlif sektoru təmsil edən seçilmiş Aİ şirkətləri ilə 20 üzbəüz müsahibə keçirilmişdir. Müsahibələrin sayı keçən il ilə müqayisədə 3 ədəd artıq olmuşdur. O cümlədən, hesabat hazırlanarkən Aİ şirkət nümayəndələrinin bağlı qrup müzakirələrində qeyd etdikləri əlavə fikirlər nəzərə alınmışdır, bu isə nəticələrin daha ətraflı təhlilini asanlaşdırmışdır. Müsahibələrdə və bağlı qrup görüşlərində iştirak edən şirkətlər tərəfindən müəyyən məsələlər üzrə bildirilən şərhlər hesabatda anonim şəkildə təqdim olunmuşdur.

Sorğunun nəticələrini daha ətraflı şəkildə təhlil etmək məqsədilə hesabatda Dünya Bankı, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu daxil olmaqla, beynəlxalq maliyyə qurumlarının, həmçinin Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin, Azərbaycan Respublikasının Mərkəzi Bankının və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin statistik məlumatlarına istinad edilmişdir. Bununla yanaşı, ölkədəki iqtisadi vəziyyət, biznes və investisiya mühiti ilə bağlı Aİ şirkətlərinin ötən illər ərzində fikirlərində baş verən dəyişiklikləri müəyyən etmək məqsədilə cari ildə və əvvəlki illərdə keçirilmiş sorğuların nəticələri arasında müqayisəli təhlil aparılmışdır.

Ümumi orta dəyərlər və orta qiymətlər ədədi ortadan istifadə etməklə hesablanmışdır. Bundan əlavə, məlumatlar arasında əlaqəni müəyyənləşdirmək məqsədilə mümkün olan hallarda müvafiq göstəricilər arasında çarpaz təhlillər aparılmışdır.

# ƏLAVƏ B: Sorğunun təfərrüatlı nəticələri

## Sual 1. Azərbaycanda hazırkı vəziyyəti necə qiymətləndirirsiniz?




| Cavab seçimləri | Pis | Qənaətbəxş | Yaxşı | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|
| Ölkə iqtisadiyyatı | 34 | 87 | 9 | 1.81 | 130 |
| Sizin sektorunuz | 30 | 79 | 21 | 1.93 | 130 |
| Sizin şirkətiniz | 13 | 86 | 31 | 2.14 | 130 |
| **Yekun** | | | | | **130** |

## Sual 2. Ötən il ilə müqayisədə 2019-cu il ərzində Azərbaycandakı imkanları necə dəyərləndirirsiniz?




| Cavab seçimləri | Daha pis | Stabil | Daha yaxşı | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|
| Ölkə iqtisadiyyatı | 13 | 83 | 34 | 2.16 | 130 |
| Sizin sektorunuz | 11 | 80 | 39 | 2.22 | 130 |
| Sizin şirkətiniz | 10 | 75 | 45 | 2.27 | 130 |
| **Yekun** | | | | | **130** |

## Sual 3. Ötən il ilə müqayisədə 2019-cu il ərzində şirkətinizin fəaliyyət göstəricilərini necə qiymətləndirirsiniz?




| Cavab seçimləri | Azalacaq | Sabit qalacaq | Artacaq | Şamil edilmir | Orta qiymət* | Cavabların sayı |
|---|---|---|---|---|---|---|
| Gəlirlər | 21 | 45 | 53 | 11 | 2.27 | 130 |
| Kapital xərcləri | 15 | 58 | 38 | 19 | 2.21 | 130 |
| Xərclər | 17 | 53 | 51 | 9 | 2.28 | 130 |
| İşçilərin sayı | 15 | 61 | 49 | 5 | 2.27 | 130 |
| İxrac | 7 | 34 | 20 | 69 | 2.21 | 130 |
| İdxal | 13 | 42 | 36 | 39 | 2.25 | 130 |
| **Yekun** | | | | | | **130** |

* Orta qiymətlər hesablanarkən *"şamil edilmir" cavab variantları nəzərə alınmamışdır.*

## Sual 3.1 Şirkətinizin məhsullarının neçə faizi idxal olunur?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| <1 | 15% | 14 |
| 1-9 | 13% | 12 |
| 10-49 | 24% | 22 |
| 50-89 | 21% | 19 |
| 90-100 | 26% | 24 |
| **Yekun** | **100%** | **91** |

## Sual 4. Şirkətiniz/sektorunuz üçün yerli biznes mühitinin aşağıdakı göstəricilərini necə dəyərləndirirsiniz?




| Cavab seçimləri | Qeyri-qənaətbəxş | Orta | Qənaətbəxş | Orta qiymət | Cavabların sayı |
|---|---|---|---|---|---|
| Siyasi və sosial sabitlik | 9 | 58 | 63 | 2.42 | 130 |
| İşçilərin ixtisas və bacarıqları | 21 | 60 | 49 | 2.22 | 130 |
| İşçilərin məhsuldarlığı | 17 | 71 | 42 | 2.19 | 130 |
| Əməyin dəyəri | 15 | 77 | 38 | 2.18 | 130 |
| İmmiqrasiya siyasətinin uyğunluğu | 23 | 68 | 39 | 2.12 | 130 |
| Əmək Məcəlləsi qanununun uyğunluğu | 26 | 64 | 40 | 2.11 | 130 |
| İnfrastruktur | 22 | 76 | 32 | 2.08 | 130 |
| Yeni texnologiyadan istifadə imkanları | 34 | 68 | 28 | 1.95 | 130 |
| Vergi yükü | 27 | 87 | 16 | 1.92 | 130 |
| Dövlət idarəçiliyi | 32 | 78 | 20 | 1.91 | 130 |
| Vergi siyasəti və vergi orqanları | 38 | 71 | 21 | 1.87 | 130 |
| İxtisaslı kadrların mövcudluğu | 50 | 53 | 27 | 1.82 | 130 |
| Yerli təchizatçıların keyfiyyəti və mövcudluğu | 43 | 70 | 17 | 1.80 | 130 |
| Ödəmə intizamı | 46 | 66 | 18 | 1.78 | 130 |
| Gömrük rəsmiləşdirilməsi prosedurları | 49 | 64 | 17 | 1.75 | 130 |
| İqtisadi siyasətin proqnozlaşdırılması | 44 | 74 | 12 | 1.75 | 130 |
| Kapitala çıxış | 50 | 64 | 16 | 1.74 | 130 |
| Tədqiqat və inkişaf üçün mövcud şərait | 52 | 60 | 18 | 1.74 | 130 |
| Korrupsiya ilə mübarizə tədbirləri | 54 | 57 | 19 | 1.73 | 130 |
| Hüquqi dəqiqlik | 53 | 61 | 16 | 1.72 | 130 |
| Təhsilin keyfiyyəti | 57 | 56 | 17 | 1.69 | 130 |
| Dövlət satınalmasının şəffaflığı | 59 | 57 | 14 | 1.65 | 130 |
| Peşə təhsilinin keyfiyyəti | 59 | 58 | 13 | 1.65 | 130 |
| Gömrük tarifləri | 60 | 57 | 13 | 1.64 | 130 |
| İctimai fondlara çıxış | 63 | 60 | 7 | 1.57 | 130 |
| **Yekun** | | | | | **130** |

## Sual 5. Şirkətinizi yerli təchizatçılarla əməkdaşlıq etməkdən çəkindirən əsas amillər nələrdir? (Uyğun gələn maksimum 3 variantı seçin)



| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Yerli təchizatçıların keyfiyyət standartlarına cavab verməməsi | 17% | 51 |
| Etibar etdiyimiz məhsulların yerli istehsalının olmaması | 16% | 49 |
| Yerli təchizatçılarla əməkdaşlıq edirik | 16% | 49 |
| Yerli təchizatçıların müvafiq bacarıq və imkanlara malik olmaması | 15% | 46 |
| Yerli təchizatçıların qeyri-peşəkarlığı | 12% | 36 |
| Yerli təchizatçıların etibarsızlığı | 6% | 19 |
| Yerli təchizatçıların etik standartlara cavab verməməsi | 6% | 17 |
| Yerli təchizatçıların intellektual mülkiyyət hüquqlarına hörmət etməməsi | 5% | 15 |
| Yerli təchizatçıların ekoloji standartlara cavab verməməsi | 4% | 13 |
| Digər | 1% | 3 |
| **Yekun** | **100%** | **298** |

## Sual 6. Aşağıdakı amillərdən hansı şirkətinizə/ sektorunuza daha çox təsir göstərir?




| Cavab seçimləri | 11 | 10 | 9 | 8 | 7 | 6 | 5 | 4 | 3 | 2 | 1 | Cavab faizi | Cavabların sayı |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bazarın qeyri-müəyyən istiqamətdə inkişafı | 5 | 4 | 4 | 10 | 11 | 8 | 7 | 14 | 18 | 30 | 19 | 100% | 130 |
| | | 32.31% | | | | | | | 67.69% | | | | |
| Valyuta məzənnəsinin dəyişkənliyi | 9 | 12 | 18 | 11 | 12 | 13 | 6 | 18 | 10 | 6 | 15 | 100% | 130 |
| | | 57.69% | | | | | | | 42.31% | | | | |
| Bürokratiya | 4 | 5 | 9 | 4 | 11 | 18 | 13 | 13 | 16 | 19 | 18 | 100% | 130 |
| | | 39.23% | | | | | | | 60.77% | | | | |
| İnflyasiya | 8 | 8 | 14 | 20 | 13 | 7 | 20 | 15 | 10 | 7 | 8 | 100% | 130 |
| | | 53.85% | | | | | | | 46.15% | | | | |
| Vergi qaydaları | 10 | 11 | 6 | 10 | 18 | 18 | 17 | 13 | 10 | 9 | 8 | 100% | 130 |
| | | 56.15% | | | | | | | 43.85% | | | | |
| Korrupsiya | 19 | 12 | 6 | 10 | 6 | 3 | 13 | 15 | 18 | 15 | 13 | 100% | 130 |
| | | 43.08% | | | | | | | 56.92% | | | | |
| Xarici valyuta əldə etmə imkanı | 35 | 28 | 19 | 10 | 3 | 7 | 9 | 3 | 4 | 8 | 4 | 100% | 130 |
| | | 78.46% | | | | | | | 21.54% | | | | |
| Maliyyə əldə etmə imkanı | 14 | 21 | 20 | 15 | 10 | 11 | 1 | 6 | 9 | 5 | 18 | 100% | 130 |
| | | 70% | | | | | | | 30% | | | | |
| Gömrük nəzarəti | 12 | 6 | 16 | 12 | 9 | 19 | 15 | 8 | 16 | 8 | 9 | 100% | 130 |
| | | 56.92% | | | | | | | 43.08% | | | | |
| İnfrastruktur çatışmazlığı | 6 | 18 | 9 | 17 | 22 | 13 | 15 | 9 | 8 | 10 | 3 | 100% | 130 |
| | | 65.38% | | | | | | | 34.62% | | | | |
| İxtisaslı kadrların çatışmazlığı | 8 | 5 | 9 | 11 | 15 | 13 | 14 | 16 | 11 | 13 | 15 | 100% | 130 |
| | | 46.92% | | | | | | | 53.08% | | | | |

## Sual 7. 2018-ci ildə Azərbaycanda maliyyə sektorundakı zəifliklərin aradan qaldırılması və iqtisadi artımın təmin edilməsi üçün bir sıra islahatlar həyata keçirilmişdir. Aşağıdakı dövlət islahatlarının Azərbaycanda biznes və investisiya mühitini inkişaf etdirməkdə nə dərəcədə effektiv olduğunu düşünürsünüz?



| Cavab seçimləri | Zəif | Orta | Yaxşı | Yaxşı məlumatlı deyiləm | Orta qiymət* | Cavabların sayı |
|---|---|---|---|---|---|---|
| ASAN-ın tabeliyində Elektron Hökumətin İnkişafı Mərkəzinin yaradılması | 1 | 29 | 85 | 15 | 2.73 | 130 |
| Gömrük xidmətlərinin elektronlaşdırılması | 15 | 33 | 64 | 18 | 2.44 | 130 |
| Əmək bazarı və sosial müdafiə sahəsində aparılan islahatlar | 9 | 47 | 50 | 24 | 2.39 | 130 |
| Vergi qanunvericiliyinə edilən dəyişikliklər | 16 | 46 | 59 | 9 | 2.36 | 130 |
| İxracın diversifikasiyası üçün institusional dəstək | 13 | 34 | 42 | 41 | 2.33 | 130 |
| Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) siyasətləri və tədbirləri | 26 | 41 | 29 | 34 | 2.03 | 130 |
| Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti | 23 | 37 | 22 | 48 | 1.99 | 130 |
| KOS-un İnkişafı Agentliyi tərəfindən görülən tədbirlər | 20 | 46 | 19 | 45 | 1.99 | 130 |
| Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən görülən tədbirlər | 28 | 38 | 20 | 44 | 1.91 | 130 |
| İpoteka və Kredit Zəmanət Fondunun fəaliyyəti | 32 | 30 | 18 | 50 | 1.83 | 130 |
| **Yekun** | | | | | | **130** |

* Orta qiymətlər hesablanarkən *"yaxşı məlumatlı deyiləm"* cavab variantları nəzərə alınmamışdır.

## Sual 8. Aşağıdakı islahatlardan hansının Azərbaycanda biznes və investisiya mühitinin inkişaf etdirilməsində ən böyük əhəmiyyətə malik olduğunu düşünürsünüz? (Uyğun gələn maksimum 3 variantı seçin)




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Vergi sistemində şəffaflığın daha da artırılması | 17% | 64 |
| Gömrük sistemində şəffaflığın daha da artırılması | 16% | 60 |
| Ölkədəki akademik və peşə təhsili sisteminin şirkətlərin tələblərinə uyğun gəlməsini təmin etmək | 13% | 50 |
| Hüquq sistemində şəffaflığın təmin edilməsi (xüsusilə müqavilənin icrası və iqtisadi mübahisələrin həlli ilə bağlı) | 13% | 47 |
| Maliyyə sektorunun şəffaflığının və sabitliyinin gücləndirilməsi | 11% | 40 |
| Xırda korrupsiya hallarının minimuma endirilməsi və bürokratiyanın azaldılması məqsədilə elektron idarəetmənin təşviq edilməsi | 10% | 37 |
| Xarici sahibkarlar və investorlar üçün yaşayış və iş icazəsinin alınma prosedurlarının asanlaşdırılması | 9% | 33 |
| Dövlət satınalmalarında şəffaflığın təmin edilməsi | 8% | 30 |
| Azərbaycanın ÜTT-yə üzvlük prosesinin başa çatdırılması | 3% | 12 |
| Digər | 1% | 3 |
| **Yekun** | **100%** | **376** |

## Sual 9. Şirkətinizi Azərbaycana sərmayə qoymağa/Azərbaycanda biznes fəaliyyəti ilə məşğul olmağa təşviq edən amillər nələrdir? (Uyğun gələn maksimum 3 variantı seçin)




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Daxili bazarlara çıxış | 27% | 77 |
| Strateji tərəfdaşlıq/müttəfiqlik | 24% | 67 |
| İnvestisiyanın təşviqi (məsələn, vergi təşviqləri) | 9% | 25 |
| Aşağı istehsal xərcləri | 9% | 25 |
| Texnologiya və ya bilikdən istifadə imkanları | 8% | 24 |
| İxrac bazarlarına çıxış | 7% | 21 |
| Təbii ehtiyatlara giriş imkanı | 6% | 16 |
| Yarımfabrikatlara və təchizatçılara çıxış | 4% | 12 |
| Təchizat zənciri riskinin diversifikasiyası | 4% | 10 |
| Digər | 2% | 6 |
| **Yekun** | **100%** | **283** |

## Sual 10. Azərbaycanı yenidən investisiya məkanı olaraq seçərdinizmi?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Bəli | 75% | 98 |
| Xeyr | 7% | 9 |
| Əmin deyiləm | 18% | 23 |
| **Yekun** | **100%** | **130** |

## Sual 11. Növbəti bir-iki il ərzində Azərbaycanda şirkətinizin hansı istiqamətdə inkişaf edəcəyini düşünürsünüz?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Böyüyəcək | 44% | 63 |
| Sabit qalacaq | 36% | 52 |
| Kiçiləcək | 6% | 8 |
| Bağlanacaq | 1% | 2 |
| İstehsal Azərbaycanda təşkil olunacaq | 9% | 13 |
| Üçüncü bir ölkəyə köçəcək | 4% | 6 |
| **Yekun** | **100%** | **144** |

## Sual 11.1. Şirkətinizi digər bir ölkəyə köçürməyi planlaşdırdığınız halda, hansı ölkəni seçərdiniz?

| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Gürcüstan | 33% | 2 |
| Kanada | 17% | 1 |
| Malta | 17% | 1 |
| Rusiya | 17% | 1 |
| Özbəkistan | 17% | 1 |
| **Yekun** | 100% | 6 |

## Sual 12. Şirkətinizin əsas fəaliyyət sahəsini seçin.




| Cavab seçimləri | Cavab sayı | Cavabların sayı |
|---|---|---|
| Topdan və Pərakəndə Ticarət | 15% | 19 |
| Peşəkar, Elmi və Texniki fəaliyyət | 14% | 18 |
| Dağ-mədən, Neft və Qaz | 14% | 18 |
| Maliyyə və Sığorta | 8% | 11 |
| Nəqliyyat və Anbar Təsərrüfatı | 8% | 10 |
| Tikinti | 7% | 9 |
| Elektrik enerjisi, Qaz, Buxar və Kondisiyalaşdırılmış hava ilə Təchizat | 6% | 8 |
| Su təchizatı; Kanalizasiya, Tullantıların idarə edilməsi və emalı | 6% | 8 |
| İnformasiya və Kommunikasiya | 5% | 7 |
| İnzibatı və Dəstək Xidmətlərinin göstərilməsi | 4% | 5 |
| Səhiyyə və Sosial İş | 4% | 5 |
| Təhsil | 3% | 4 |
| İstehsal | 3% | 4 |
| Yaşayış və Qida Xidmətlərinin göstərilməsi | 2% | 2 |
| Kənd təsərrüfatı, Meşə təsərrüfatı və Balıqçılıq | 1% | 1 |
| İncəsənət, Əyləncə və İstirahət | 1% | 1 |
| **Yekun** | 100% | 130 |

## Sual 13. Şirkətdəki cari vəzifənizi qeyd edin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Baş İcraçı Direktor (CEO) | 44% | 57 |
| Müdir | 23% | 30 |
| Müdir müavini | 8% | 10 |
| İşçi | 7% | 9 |
| Baş menecer | 6% | 8 |
| Şöbə müdiri | 5% | 6 |
| İdarəedici partnyor | 4% | 5 |
| Sahibkar | 4% | 5 |
| **Yekun** | 100% | 130 |

## Sual 14. Şirkətinizin işçilərinin sayını qeyd edin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| 1-9 | 38% | 49 |
| 10-49 | 32% | 42 |
| 50-249 | 16% | 21 |
| 250-dən artıq | 14% | 18 |
| **Yekun** | **100%** | **130** |

## Sual 15. Şirkətinizin strukturunu təsvir edən ən uyğun variantı seçin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| 100% Avropa İttifaqı mülkiyyəti | 52% | 67 |
| 100% Azərbaycan mülkiyyəti ilə Avropa İttifaqı mallarının və xidmətlərinin idxalı | 22% | 28 |
| 50%-dən çox Avropa İttifaqı mülkiyyəti | 15% | 19 |
| 50%-dən çox Azərbaycan və bir hissəsi Avropa İttifaqı mülkiyyəti | 9% | 12 |
| 50%-dən çox Azərbaycan mülkiyyəti və bir hissəsi Avropa İttifaqından kənar mülkiyyət | 2% | 3 |
| Digər | 1% | 1 |
| **Yekun** | 100% | 130 |

## Sual 16. Şirkətiniz hansı ölkəni təmsil edir?




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Almaniya | 28% | 37 |
| Azərbaycan | 22% | 29 |
| Birləşmiş Krallıq | 15% | 19 |
| Fransa | 9% | 12 |
| Hollandiya | 5% | 7 |
| İtaliya | 5% | 6 |
| İsveç | 4% | 5 |
| İsveçrə | 2% | 3 |
| Avstriya | 2% | 3 |
| Belçika | 2% | 2 |
| Macarıstan | 1% | 1 |
| Çexiya | 1% | 1 |
| Danimarka | 1% | 1 |
| Finlandiya | 1% | 1 |
| Norveç | 1% | 1 |
| Rumıniya | 1% | 1 |
| Sloveniya | 1% | 1 |
| **Yekun** | 100% | 130 |

## Sual 17. Şirkətinizin Azərbaycanda yaranma tarixini qeyd edin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| <1990 | 4% | 5 |
| 1990-2000 | 30% | 39 |
| 2001-2010 | 32% | 42 |
| >2010 | 34% | 44 |
| **Yekun** | 100% | 130 |

## Sual 18. Şirkətinizin Azərbaycandakı hüquqi formasını seçin.




| Cavab seçimləri | Cavab faizi | Cavabların sayı |
|---|---|---|
| Məhdud Məsuliyyətli Cəmiyyət (MMC) | 53% | 69 |
| Nümayəndəlik | 21% | 27 |
| Filial | 15% | 19 |
| Səhmdar Cəmiyyət (SC) | 7% | 9 |
| Tərəfdaşlıq | 4% | 5 |
| Digər | 1% | 1 |
| **Yekun** | 100% | 130 |

# ƏLAVƏ C: Statistik məlumatlar

## Aİ ilə Azərbaycan arasında ticarət

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin statistik məlumatlarına əsasən, 2017-ci il ilə müqayisədə ölkənin xarici ticarət dövriyyəsi 2018-ci ildə 26% artıb. Bu isə ixracın və idxalın müvafiq olaraq, 28% və 23% artdığını əks etdirir. Aİ ölkələri Azərbaycanın əsas ticarət tərəfdaşı olaraq qalır və ölkənin ümumi ixracının 54,3%-ni , ümumi idxalının isə 20,3%-ni təşkil edir. Statistik məlumatlar əvvəlki il ilə müqayisədə 2018-ci ildə Aİ ölkələri tərəfindən aparılan ixrac və idxal əməliyyatlarının müvafiq olaraq, 32% və 17% artdığını göstərir. Asiya İnkişaf Bankının proqnozlarına əsasən, daha böyük həcmdə qaz ixracına baxmayaraq, neftin orta qiymətinin daha aşağı səviyyədə olması səbəbindən 2019-cu ildə ixrac 7,5% azalacaq, 2020-ci ildə isə "Şahdəniz 2" yatağında qaz hasilatının artması ilə 1% artacaq. Digər tərəfdən, 2019-cu ildə maşın avadanlıqlarına və maşınlara qoyulan gömrük rüsumlarının artması ilə əlaqədar olaraq, 2020-ci ildə idxalın 19,9% azalacağı, 2020-ci ildə isə gömrük tariflərinin təsirinin azalması ilə bağlı olaraq, artan daxili tələbatı ödəmək məqsədilə yenidən 11,1% artacağı gözlənilir.

**Ümumi əmtəə:** Aİ ticarət axını və balansı, illik məlumat 2006-2018




*Mənbə: Avropa İttifaqı, Azərbaycan ilə ticarət, https://webgate.ec.europa.eu/isdb_results/factsheets/country/details_azerbaijan_en.pdf*

## Azərbaycan iqtisadiyyatına qoyulan birbaşa xarici investisiyalar

İqtisadiyyata yönəldilən birbaşa xarici investisiyalar, 2011-2018




*Mənbə: Azərbaycan Respublikasının Mərkəzi Bankı, Tədiyə balansı 2018*

# İstinadlar


**1**. Beynəlxalq Valyuta Fondu. (Aprel 2019). *Dünya İqtisadi Perspektivləri.*
**2**. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. (2019, 11 yanvar). *Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı.* 12 mart 2019-cu il tarixində daxil olunub, https://president.az/articles/31504
**3**. Asiya İnkişaf Bankı. (Aprel 2019). *Asiyanın İnkişaf Perspektivləri 2016.*
**4**. Reuters. (2017, Avqust 5) *Fitch Azərbaycanın reytinqini proqnoz neqativ olaraq BB+; səviyyəsində təsdiqləyib.* 12 mart 2019-cu il tarixində daxil olunub, https://www.reuters.com/article/fitch-affirms-azerbaijan-at-bb-outlook-n/fitch-affirms-azerbaijan-at-bb-outlook-negative-idUSFit5lsbsc
**5**. Azərbaycan Respublikasının Mərkəzi Bankı. (Dekabr 2018). *Statistik Bülleten 12/2018.* 21 fevral 2019-cu ildə daxil olunub, https://uploads.cbar.az/assets/fda7f4b02b46b495ceb27290e.pdf
**6**. Fitch Ratings. (2019, 15 fevral). *Fitch Azərbaycanın reytinqini proqnoz stabil olaraq BB+; səviyyəsində təsdiqləyib.* 12 mart 2019-cu il tarixində daxil olunub, https://www.fitchratings.com/site/pr/10063078
**7**. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2019, 21 yanvar). 2018-ci ilin yanvar- dekabr aylarında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri. 11 mart 2019-cu il tarixində daxil olunub, https://www.stat.gov.az/news/source/2018_12ay.zip
**8**. Asiya İnkişaf Bankı. (Aprel 2019). *Asiyanın İnkişaf Perspektivləri 2019.*
**9**. PwC Qlobal. (2019). *22-ci illik Qlobal CEO Sorğusu.* 18 aprel 2019-cu ildə daxil olunub, https://www.pwc.com/gx/en/ceo-survey/2019/report/pwc-22nd-annual-global-ceo-survey.pdf
**10**. Asiya İnkişaf Bankı. (Aprel 2019). *Asiyanın İnkişaf Perspektivləri 2019.*
**11**. AHK Azərbaycan, GTAI. (Aprel 2019). *Bazarın Təhlili Azərbaycan 2019.*
**12**. Schwab, K. (2018). Dünya İqtisadi Forumu, *Qlobal Rəqabətlilik Hesabatı 2018*
**13**. Avropa Nümayəndiliyi. Vergi və Gömrük Birliyi, Faktlar və şəkillər*.* 12 mart 2019-cu ildə daxil olunub, https://ec.europa.eu/taxation_customs/facts-figures/customs-is- business-friendly_en
**14**. AHK Azərbaycan, GTAI. (Aprel 2019). *Bazarın Təhlili Azərbaycan 2019.*
**15**. Ənvər Məmmədov (2018, 5 iyun) Nazir müavini: Son 5 ildə Aİ-nin Azərbaycan iqtisadiyyatına investisiyaları 15 milyard dolları ötüb. *Trend Xəbər Agentliyi.* 12 aprel 2019-cu ildə daxil olunub, https://az.trend.az/business/economy/2912912.html
**16** . Dünya Bankı. (31 oktyabr 2018). *Doing Business 2019.*

# İşçi qrupu və əlaqələndirici şəxslər

**Mətn və tərtibat:**
Nigar Bayramlı, Günay Məmmədova

**Tədqiqat və məlumatların təhlili:**
Nigar Bayramlı, Günay Məmmədova, Aidə Əliyeva

**Üzbəüz müsahibələr:**
Nigar Bayramlı, Aidə Əliyeva, Günay Məmmədova

**Redaktə:**
Tobias Baumann, Nigar Bayramlı, Ian Peart

**İngilis dilindən tərcümə:**
Tərlan Arzumanov, Günay Məmmədova

**Art direktor/qrafik dizayn:**
Vasif Kərimli

**Şəkillər:**
Pexels, Shutterstock

**Sorğu və hesabat haqqında əlavə məlumat üçün:**
Nigar Bayramlı
Bazarın Təhlili və Kommunikasiya şöbəsinin rəhbəri

## AHK Azərbaycan haqqında

Alman-Azərbaycan Ticarət Palatası (AHK Azərbaycan) Almaniyanın xarici ticarətini təbliğ edən qlobal AHK şəbəkəsinin bir hissəsidir. AHK Azərbaycan bazar araşdırmaları, bazara daxil olma və işgüzar tərəfdaş axtarışı kimi biznes xidmətləri ilə şirkətlərə dəstək göstərir. Palata Alman iqtisadiyyatının və onun tərəfdaşlarının siyasətə, rəhbərliyə və ictimaiyyətə dair maraqlarını təmsil edir. AHK Azərbaycan 2012-ci ildə təsis edilib və 2019-cu ilin may ayına əsasən, 130-dan artıq üzv şirkəti ilə Avropanın ölkədəki ən güclü biznes assosiasiyasıdır.

Alman-Azərbaycan Xarici Ticarət Palatası
Winter Park Plaza, 7-ci mərtəbə
Rəsul Rza küçəsi 75
AZ 1014 Bakı, Azərbaycan
Tel: +994 12 497 63 06/07
E-mail: mail@ahk-baku.de
www.ahk-baku.de

Bu nəşr Avropa İttifaqı tərəfindən maliyyələşdirilmişdir və Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin mühüm töhfəsi ilə ərsəyə gəlmişdir. Bu hesabat 2019-cu ilin əvvəlində keçirilmiş biznes mühiti sorğusunun nəticələri əsasında hazırlandığına görə, yalnız ümumi məlumat kitabçasıdır və rəsmi statistik mənbə kimi istinad üçün nəzərdə tutulmamışdır. Hesabatda göstərilən qiymətləndirmələr Aİ şirkətlərinin fikirlərini ifadə edir və AHK Azərbaycanın və Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin mövqeyini əks etdirmir. Bu sənədin hazırlanmasında hər cür tədbir alınmış olsa da, AHK Azərbaycan hesabatda təmin edilən məlumatların dəqiqliyinə, tamlığına və düzgünlüyünə görə heç bir məsuliyyət daşımır və ya heç bir təminat vermir.

© 2019 Bütün hüquqlar qorunur.

**Məsuliyyətdən imtina**

Bu nəşr Avropa İttifaqının maliyyə dəstəyi ilə hazırlanmışdır. Bu sənədin məzmunu tamamilə Alman-Azərbaycan Xarici Ticarət Palatasının məsuliyyətidir və heç bir halda Avropa İttifaqının mövqeyini əks etdirmir.